RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 213 (10233) 19 noyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Azərbaycan-Almaniya əlaqələrində yeni səhifə

Bakı və Berlin arasında qarşılıqlı etimada dayanan əlaqələr bütün Avrasiya məkanının sabitliyinə və rifahına xidmət edir

Berlində keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan strateji sənədlər və verilən bəyanatlar Azərbaycan ilə Almaniya arasında tərəfdaşlığın yalnız regional deyil, qlobal geosiyasi çəkiyə malik olduğunu bir daha sübut etdi. Səfər çərçivəsində Prezident İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts tərəfindən imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" münasibətlərin gələcək inkişaf istiqamətlərinin yol xəritəsi oldu. Bəyannamə siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, müdafiə, texnologiya, elm və təhsil sahələrini vahid strateji çərçivədə birləşdirir. Sənəddə nazirlərarası məsləhətləşmələrin və Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyəti vasitəsilə əməkdaşlığın davamlılığını təmin etmək əksini tapıb. Bu vacib sənəd iki ölkə arasında əlaqələrə yeni nəfəs verdi.

Prezident İlham Əliyev Berlindəki bəyanatında bu tarixi anın əhəmiyyətini belə ifadə etmişdi: "Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir".

Kansler Fridrix Mertsin bu sənədi "ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin təməl daşı" adlandırması isə rəsmi Berlinin Bakı ilə əməkdaşlığa nə qədər ciddi yanaşdığını göstərdi: "Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və "Cənub qaz dəhlizi" ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir".

4

Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin yeni mahiyyət kəsb etməsi məmnunluq doğurur



Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Edqars Rinkeviçsə

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz xoş və zəngin ənənələrə əsaslanan Azərbaycan-Latviya əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Bu gün ikitərəfli münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etməsi və yeni mahiyyət kəsb etməsi məmnunluq doğurur.

Sizin aprel ayında Azərbaycana rəsmi səfəriniz dövlətlərarası əlaqələrimizin yeni pilləyə qaldırılması, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi üçün əlverişli şərait formalaşdırmışdır.

İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Latviya dostluq və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsi, həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlığımızın genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, Latviya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

Sosial siyasətin maliyyə təminatı

Gələn ilin dövlət büdcəsində sosial xərclər üçün 13 milyard manat nəzərdə tutulur. Bu, cari ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 222,7 milyon manat və ya 1,7 faiz artım deməkdir. Daha geniş mənada isə sosialyönümlü xərclərin həcmi 18,7 milyard manata çatacaq. Başqa sözlə, bu istiqamətdə xərclər 1,6 milyard manat və ya 9,2 faiz artacaq.

Diqqətçəkən məqamlardan biri də sosialyönümlü xərclərin dövlət büdcəsindəki payının 44,2 faizə yüksəlməsinin proqnozlaşdırılmasıdır. Bu göstərici cari illə müqayisədə 3,1 faiz artım deməkdir. Ümumi daxili məhsulda (ÜDM) sosialyönümlü xərclərin payının



13,3 faizə çatacağı gözlənilir. Rəqəmlər büdcə siyasətində sosial istiqamətin əhəmiyyətini nümayiş etdirməklə yanaşı, iqtisadi inkişafın nəticələrinin insan kapitalına, sosial təminata və ictimai rifaha yönəldilməsi baxımından da önəm daşıyır.

5

İlham Əliyev Heytəm bin Tariq Səidi təbrik edib

Omanın Sultanı əlahəzrət Heytəm bin Tariq Al Səidə

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Oman xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

Səngərdən quruculuq meydanına

İşğaldan azad olunmuş ərazilərdə sürətlə aparılan tikinti və bərpa işləri Azərbaycanın müstəqillik tarixində həyata keçirdiyi ən böyük layihələrdir. Bu layihələr Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edir. Çəkilən avtomobil yolları, dəmir yolu xətləri, salınan körpülər, tikilən hava limanları quruculuq işlərini daha da sürətləndirir. İşğaldan azad olunmuş ərazilərdə inşa edilən "ağıllı" yaşayış məntəqələri müasir dövrün şəhərsalma prinsiplərinə və tələblərinə cavab verir. Yaşayış binaları ilə bərabər, sosial obyektlər, məktəblər, tibb müəssisələri, xidmət infrastrukturu da tikilir. Bir sözlə, doğma ocaqlarına qayıdan keçmiş məcburi köçkünlərin yaşaması üçün hərtərəfli şərait yaradılır, rahatlığı təmin olunur.



Bu gün hamımız Böyük qayıdışın sevincinin şahidiyik. Zəngilan rayonunun Ağalı kəndindən başlayan bu proses hazırda işğaldan azad olunmuş digər şəhər və kəndlərdə davam edir. Elə gün yoxdur ki, insanlar uzun illər həsrətində olduqları doğma ocaqlarına dönməsinlər.

2

Sənaye parkları Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafına xidmət edir

Qarabağ və Şərqi Zəngəzurdakı quruculuğun vacib istiqamətlərindən biri də müasir istehsal müəssisələrinin yaradılması, sahibkarlığın inkişafı və investisiya mühitinin formalaşdırılmasıdır. Çünki ərazilərin bərpası yalnız müasir infrastrukturun qurulması ilə yekunlaşmır. Bu ərazilərə qayıdan insanların daimi iş yerləri ilə təmin edilməsi, ailələrin sabit gəlir mənbələrinin formalaşdırılması, yerli istehsalın genişləndirilməsi və iqtisadi fəallığın artırılması da vacib şərtlərdəndir. Başqa sözlə, Böyük qayıdışın davamlılığı üçün yaşayış şəraiti ilə yanaşı, güclü iqtisadi baza da yaradılmalıdır.



Bu istiqamətdə atılan mühüm addımlardan biri 2021-ci il mayın 28-də Ağdam Sənaye Parkının yaradılmasıdır. Ağdam rayonunda yerləşən və 190 hektar ərazini əhatə edən park regionun sənaye potensialının inkişaf etdirilməsinə xidmət edir. Burada tikinti materiallarının istehsalı, qida və kənd təsərrüfatı məhsullarının emalı, ət və süd məhsullarının hazırlanması, maşınqayırma, yüngül sənaye, mebel, qablaşdırma və məişət məhsulları istehsalı kimi müxtəlif fəaliyyət istiqamətləri nəzərdə tutulub. Bu sahələrin inkişafı həm daxili bazarın tələbatının ödənilməsi, həm də gələcəkdə ixrac imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

8

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 5, maddə 327 (Cild I);2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin13-cü bəndinin birinci cümləsində "iki" sözü "üç" sözü ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 noyabr 2026-cı il

Azərbaycan-Gürcüstan iqtisadi tərəfdaşlığının inkişaf perspektivlərinə dair fikir mübadiləsi olub

İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili ilə görüşüb.



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin dinamik inkişaf etdiyi qeyd olunub. Gürcüstanla sənaye və istehsal sahəsində birgə layihələrin, enerji əməkdaşlığının, o cümlədən "yaşıl enerji" təşəbbüslərinin, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhliz çərçivəsində nəqliyyat-logistika imkanlarının inkişafının əhəmiyyəti vurğulanıb.

Tərəflər Azərbaycan-Gürcüstan iqtisadi tərəfdaşlığının inkişaf perspektivləri, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, sənaye, enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar. Müzakirədə ortaq iqtisadi maraqların reallaşdırılması və regional təşəbbüslərin irəlilədilməsi istiqamətində birgə fəaliyyətin önəmi qeyd olunub.

Gürcüstan Müdafiə Qüvvələri komandanının ölkəmizə səfəri davam edir





Gürcüstan Müdafiə Qüvvələri komandanı general-leytenant Giorgi Matiaşvili və onu müşayiət edən nümayəndə heyətinin ölkəmizə səfəri davam edir. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Səfər proqramına uyğun olaraq, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və qonaqlar Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsində olublar. Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şahin Məmmədov nümayəndə heyətinə HDQ-nin fəaliyyəti və həyata keçirilən islahatlar barədə məlumat verib. Sonra nümayəndə heyəti HDQ-də istifadədə olan hərbi-texniki vasitələrin sərgisi ilə tanış olub, dəniz xüsusi təyinatlıları tərəfindən təqdim edilən nümayiş məşğələsini izləyib.

Görüşdə həmçinin ölkələrin HDQ-ləri arasında əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi sahələrində əlaqələrin inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

Səfər çərçivəsində qonaqlar Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət ediblər.

Burada nümayəndə heyətinə MMU-da, eləcə də Hərbi Liseydə təhsil sistemi və tədris prosesinin təşkili barədə ətraflı məlumat verilib, tərəfləri maraqlandıran suallar cavablandırılıb.

Liseylə tanışlıq zamanı qonaqlar Heydər Əliyev Muzeyində də olublar. Burada onlara Azərbaycan Ordusu üçün peşəkar kadrların hazırlanmasında hərbi liseylərin müstəsna rolu olduğu və bu hərbi təhsil ocağının yaradılmasında məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin dayandığı xüsusi vurğulanıb.

Görüşdən sonra general-leytenant G.Matiaşvili "Şərəf kitabı"na ürək sözlərini yazıb, göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

ANAMA sədri Brüsseldə mühüm görüşlər keçirib:

minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlıq genişlənir

Noyabrın 16-18-də Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqı və Ukraynanın birgə evsahibliyi ilə təşkil edilən Ukraynada Mina Fəaliyyəti üzrə 4-cü Konfransda (UMAC 2026) iştirak edib.





Bu barədə AZƏRTAC-a ANAMA-dan məlumat verilib.

Ümumilikdə 400-ə yaxın nümayəndənin iştirak etdiyi konfransda bir sıra ölkələrin yüksəksəviyyəli hökumət nümayəndələri, beynəlxalq təşkilatların, maliyyə institutlarının, özəl sektorun, minatəmizləmə qurumlarının, istehsalçı şirkətlərin, qeyri-hökumət təşkilatlarının və akademik dairələrin rəsmiləri təmsil olunublar.

Konfrans çərçivəsində keçirilən sessiyalarda mina təhlükəsi ilə mübarizə sahəsində idarəetmə və innovasiyalar, partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə, milli potensialın gücləndirilməsi və dayanıqlı minatəmizləmə modelləri, mexaniki minatəmizləmə texnologiyalarının inkişafı, şəhərlərin bərpası zamanı partlayıcı sursatların yaratdığı risklər və digər aidiyyəti mövzularda müzakirələr aparılıb. Tədbirdə iştirak etmək mina təsirinə məruz qalmış ölkələrlə təcrübə mübadiləsinin aparılması, qabaqcıl texnologiya və innovativ həllərin öyrənilməsi, eləcə də beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

UMAC 2026 Konfransı çərçivəsində Vüqar Süleymanov bir sıra ikitərəfli və üçtərəfli rəsmi görüşlər keçirib. Sədr Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono, Avropa İttifaqının Xarici Siyasət Alətləri Xidmətinin direktoru Peter Vagner və Cenevrə Beynəlxalq Humanitar Minatəmizləmə Mərkəzinin direktoru Tobias Privitelli ilə görüşdə ölkəmizin üzləşdiyi mina probleminin miqyası və bu problemin aradan qaldırılması istiqamətində mümkün dəstək imkanları ətrafında fikir mübadiləsi aparıb.

Ukrayna Fövqəladə Hallar Dövlət Xidməti (SESU) rəhbərinin müavini Roman Prymuş ilə görüşdə UMAC 2025 konfransı çərçivəsində ANAMA ilə SESU arasında imzalanmış "Humanitar minatəmizləmə üzrə Azərbaycan Respublikasında təlimlərin keçirilməsinə dair" Anlaşma Memorandumunun icrası, eləcə də digər əməkdaşlıq məsələləri ətrafında danışıqlar aparılıb.

Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenko ilə görüşdə mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, çoxtərəfli tərəfdaşlıq və bu sahədə beynəlxalq təşəbbüslərin dəstəklənməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Ukrayna iqtisadiyyat və ətraf mühit nazirinin müavini İhor Bezkaravaynyi və BMT-nin Layihə Xidmətləri Ofisi (UNOPS) nümayəndələri ilə keçirilən görüşdə tərəflər arasında humanitar minatəmizləmə sahəsində qabaqcıl təcrübə mübadiləsi və birgə təşəbbüslərin həyata keçirilməsi perspektivləri müzakirə olunub.

BMT-nin Ətraf Mühit Proqramının Cenevrədəki Ofisinin Kiyev üzrə Fəlakətlər və Münaqişələr bölməsinin baş proqram mütəxəssisi Pyer Karlo Sandey ilə görüşdə mina və digər partlayıcı sursatlarla çirklənmiş ərazilərin ekoloji bərpası, minatəmizləmə fəaliyyətinin ətraf mühitə təsirləri və ekoloji təhlükəsizliyin təmin olunması məsələləri nəzərdən keçirilib.

Vüqar Süleymanov həmçinin Ukraynanın və digər beynəlxalq qeyri-hökumət təşkilatlarının bu sahədə fəaliyyət göstərən nümayəndələri ilə də görüşlər keçirib.

Azərbaycanla Gürcüstan arasında ikitərəfli əlaqələrin aktual istiqamətləri nəzərdən keçirilib

Azərbaycanın Baş naziri Əli Əsədov noyabrın 18-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili ilə görüşüb.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb.

Oktyabrın 30-da keçirilmiş Azərbaycan-Gürcüstan Hökumətlərarası Komissiyasının 11-ci iclasında razılaşdırılan məsələlərin icrası, həmçinin ikitərəfli əlaqələrin aktual istiqamətləri nəzərdən keçirilib. Ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 485 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 385 **Bakı şəhəri, 18 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 485 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1820 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası"nın 1.2-ci bəndindən "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında" 2018-ci il 6 noyabr tarixli 325 nömrəli, "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2019-cu il 22 fevral tarixli 545 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanının 3.1-ci bəndinə əsasən" sözləri çıxarılsın.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu"nun strukturunun, işçilərinin say həddinin, əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 386 **Bakı şəhəri, 18 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu"nun strukturu təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu"nun işçilərinin say həddi 435 ştat vahidi olmaqla təsdiq edilsin.

3. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu"nun işçilərinin əməkhaqlarının məbləğləri (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) təsdiq edilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

Səngərdən quruculuq meydanına





İkinci Qarabağ müharibəsində erməni işğalçıları üzərində qazanılan böyük Zəfərdən sonra Azərbaycan beynəlxalq aləmdə güclü, qüdrətli, öz ərazi bütövlüyünü və suverenliyini qısa zamanda bərpa edən dövlət kimi tanındı. Döyüş meydanında əldə olunan bu Zəfər qəhrəmanlıq tariximizin ən parlaq səhifəsi oldu.

44 gün səngimədən davam edən Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində parlaq qələbəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə dirçəliş, abadlıq və quruculuq işlərinə start verildi. Amma Qarabağ və Şərqi Zəngəzur büsbütün yenidən tikilməli idi. Çünki düşmən işğal illərində daşı daş üstə qoymamışdı. Belə bir vəziyyətdə Azərbaycan Prezidenti İlham Əliyev görüləcək quruculuq işlərinin istiqamətlərini göstərdi. Ardınca Böyük qayıdış proqramı çərçivəsində yeni yollar çəkildi, dini abidələr təmir və bərpa olundu, zəruri infrastruktur quruldu. Ən əsası, keçmiş məcburi köçkünlərin geri dönməsi və yaşaması üçün "ağıllı" kənd və şəhərlər salındı, onlar işıq, qaz, su ilə təchiz olundu, əhali üçün iş yerləri açıldı.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı imzaladığı 10 dekabr 2021-ci il tarixli sərəncamında yazılmışdı: "Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır".

İşğaldan azad olunmuş ərazilərdə sürətlə aparılan tikinti və bərpa işləri Azərbaycanın müstəqillik tarixində həyata keçirdiyi ən böyük layihələrdir. Bu layihələr Qarabağ və Şərqi Zəngəzura yeni həyat bəxş edir. Çəkilən avtomobil yolları, dəmir yolu xətləri, salınan körpülər, tikilən hava limanları quruculuq işlərini daha da sürətləndirir. İşğaldan azad olunmuş ərazilərdə inşa edilən "ağıllı" yaşayış məntəqələri müasir dövrün şəhərsalma prinsiplərinə və tələblərinə cavab verir. Yaşayış binaları ilə bərabər, sosial obyektlər, məktəblər, tibb müəssisələri, xidmət infrastrukturu da tikilir. Bir sözlə, doğma ocaqlarına qayıdan keçmiş məcburi köçkünlərin yaşaması üçün hərtərəfli şərait yaradılır, rahatlığı təmin olunur.

Bu gün hamımız Böyük qayıdışın sevincinin şahidiyik. Zəngilan rayonunun Ağalı kəndindən başlayan bu proses hazırda işğaldan azad olunmuş digər şəhər və kəndlərdə davam edir. Elə gün yoxdur ki, insanlar uzun illər həsrətində olduqları doğma ocaqlarına dönməsinlər.

Noyabrın 6-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Cahangirbəyli və Cəbrayıl rayonunun Soltanlı kəndlərinə köçən sakinlərlə görüşdülər. Görüşdə çıxış edən dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq və bərpa işlərindən danışdı. Bildirdi ki, 6 il əvvəl şanlı ordumuz düşməni torpaqlarımızdan qovaraq haqq-ədaləti bərpa etdi. Artıq 6 ildir biz quruculuq işləri ilə məşğuluq: "Uzun illər ağır şəraitdə yaşamış köçkünlərin doğma torpaqlara qayıtması hər bir vətəndaşımızın böyük arzusu idi, ilk növbədə, əlbəttə ki, köçkün şəklində, köçkün şəraitində yaşayan insanlar üçün. Amma siz də bilirsiniz ki, hər bir vətənpərvər insan sizin tezliklə doğma diyara qayıtmağınızı arzulayırdı".

Ölkə rəhbəri daha sonra bildirdi: "Bu gün biz demək olar ki, müntəzəm olaraq yeni gözəl kəndlər, şəhərlər salırıq, sıfırdan qururuq. Çünki mənfur düşmən bizim bütün şəhər və kəndlərimizi yerlə yeksan etmişdi, o cümlədən Cahangirbəyli, Soltanlı kəndlərini də tam dağıtmışdı. Bu gün bu iki kəndə təqribən 700-ə yaxın ailə qayıdır. Sizin üçün gözəl evlər tikilib. Əminəm ki, siz bu şəraitdən səmərəli şəkildə istifadə edəcəksiniz. Əsas məsələ odur ki, artıq köçkünlük həyatı arxada qalır".

Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq və bərpa işləri Azərbaycan dövlətinin gücünü, qüdrətini göstərir. Bu işlər tikinti, quruculuq meydanında Zəfərin davamıdır. O davam ki, bununla Azərbaycanın müasir tarixinə yeni səhifələr yazılır.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Milli Məclisin iclasında

2027-ci ilin büdcə zərfinə daxil olan qanun layihələrinin birinci oxunuşda müzakirəsi başa çatıb





Noyabrın 18-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda hökumət üzvləri və nümayəndələri iştirak ediblər.

İclasda ötən plenar iclasda təqdim olunan gündəliyin 8-ci məsələsi - Meşə Məcəlləsində, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Tibbi sığorta haqqında", "Avtomobil yolları haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Gömrük tarifi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hesablama Palatası haqqında", "Dövlət satınalmaları haqqında" və "Balıqçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ətrafında müzakirələr davam etdirilib.

Müzakirələrdə parlamentin komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, deputatlar Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Azər Badamov, Məşhur Məmmədov, Rəşad Mahmudov çıxış edərək qeyd və təkliflərini diqqətə çatdırıblar.

Çıxışlarda vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri ölkə iqtisadiyyatının şaxələndirilməsi, özəl sektorun inkişafının sürətləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması və dayanıqlı iqtisadi artımın təmin edilməsidir. Çıxışlarda təqdim olunan qanun layihəsi biznes mühitinin yaxşılaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi və iqtisadi fəallığın təşviqi baxımından dövlətin həyata keçirdiyi iqtisadi siyasətin məntiqi davamı kimi dəyərləndirilib. Sənəddə təklif olunan dəyişikliklərin iqtisadi suverenliyimizin möhkəmləndirilməsi, milli sahibkarlığın gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi baxımından vacibliyi qeyd olunub.

Komitə sədri Azər Əmiraslanov deputatların söylədikləri fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin Milli Məclisin qərar layihələri olduğunu söyləyib. O bildirib ki, bu - Azərbaycan Respublikası Milli Məclisinin 2027-ci il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2027-ci il üçün xərclər smetası haqqında qərar layihələridir.

Milli Məclisin Sədri qeyd edib ki, həmin qərar layihələri bu iclasda müzakirə olunacaq, amma qəbul edilməyəcək. Büdcə zərfinə daxil olan sənədlər üçüncü oxunuşda təsdiqlənən zaman bu qərar layihələri onlarla birlikdə qəbul ediləcək.

Parlamentin işlər müdiri Firudin Hacıyev Azərbaycan Respublikası Milli Məclisinin 2027-ci il üçün xərclər smetası haqqında məlumatı təqdim edib.

O, növbəti il üçün dövlət büdcəsində Milli Məclisin saxlanması məqsədilə nəzərdə tutulan vəsaitin deputatların, Parlament Aparatının və İşlər İdarəsinin əməkdaşlarının, eləcə də deputat köməkçilərinin əməkhaqlarının, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqlarının, habelə malların, iş və xidmətlərin satın alınması və bir sıra digər maddələr üzrə xərclərin ödənilməsi üçün nəzərdə tutulduğunu deyib.

Sonra Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov Azərbaycan Respublikası Hesablama Palatasının 2027-ci il üçün xərclər smetası haqqında məlumat verib.

O, 2027-ci ilin dövlət büdcəsində Hesablama Palatasının xərclər smetası üçün 14,3 milyon manat vəsait nəzərdə tutulduğunu deyib. Xərclər smetasında yer alan əməyin ödənişi, malların, işlərin, xidmətlərin satınalınması, sosial ödənişlər və digər istiqamətlər üzrə ayırmalar barədə danışıb.

İclasda parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim edib. Diqqətə çatdırıb ki, qanun layihəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olub. Layihədə qeyri-hökumət təşkilatlarının hüquqi statusunun, təşkilati strukturunun, fəaliyyət prinsiplərinin və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, sənəddə bir neçə istiqamət üzrə dəyişikliklər təklif olunur.

Birinci istiqamət qeyri-hökumət təşkilatlarının növlərinin qanunvericilik səviyyəsində müəyyənləşdirilməsi ilə bağlıdır. Layihəyə əsasən, ictimai birliklərin peşə, sosial-humanitar, mədəniyyət və incəsənət, təhsil və elm, ekologiya, hüquq, iqtisadiyyat sahələri, habelə qanunla müəyyən edilmiş digər növlər üzrə yaradılması nəzərdə tutulur. Fondlar isə ictimai faydalı fond, xeyriyyə fondu və qanunla müəyyən edilmiş digər növlər üzrə təsnif edilir. Hər bir ictimai birliyin və fondun yalnız bir növdə yaradılması təklif olunur.

İkinci istiqamət təşkilatların təsis edilməsi və idarə olunması ilə bağlı tələblərin dəqiqləşdirilməsidir. Belə ki, Mülki Məcəllədə və müvafiq sahə qanunlarında təşkilatların adlandırılması, təsis xüsusiyyətləri və nizamnamə tələbləri ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Üçüncü istiqamət maliyyə şəffaflığının, hesabatlılığının və məsuliyyət mexanizmlərinin gücləndirilməsi ilə bağlıdır. Layihəyə əsasən, təşkilatların əmlakının formalaşma mənbələri və onlardan istifadə barədə təfsilatlı illik maliyyə hesabatlarının təsdiqi, eləcə də vəsaitlərin alınması, toplanması, verilməsi və köçürülməsi zamanı terrorçuluğun maliyyələşdirilməsi risklərinin minimuma endirilməsinə yönəlmiş daxili prosedurların müəyyənləşdirilməsi nəzərdə tutulur.

Dördüncü istiqamət qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılması, bərpası və ləğvi ilə bağlı hüquqi əsasların yenilənməsidir. Layihədə qanunvericilik tələblərinin pozulması, şəffaflığın təmin edilməməsi, idarəetmə orqanlarının səlahiyyət müddətləri ilə bağlı dövlət reyestrində müvafiq dəyişikliklərin aparılmaması və digər hallar üzrə təşkilatların fəaliyyətinin dayandırılması əsasları genişləndirilir.

Beşinci istiqamət isə xarici qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin fəaliyyətinin hüquqi tənzimlənməsidir. Bu qurumların dövlət qeydiyyatı, müvafiq sazişlərin bağlanması və qüvvədə olma müddətinin uzadılması, eləcə də fəaliyyətlərinin şəffaflığı ilə bağlı tələblər dəqiqləşdirilir.

Layihənin keçid müddəalarına əsasən, qanun qüvvəyə mindikdən sonra artıq dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatlarının 30 gün müddətində nizamnamələrini yeni tələblərə uyğunlaşdıraraq yenidən dövlət qeydiyyatı üçün müraciət etmələri nəzərdə tutulur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Azay Quliyev məsələ barədə bu komitənin rəyini bildirib. O qeyd edib ki, təklif olunan dəyişikliklər daha peşəkar QHT-lərin formalaşmasını və sahəvi rəqabətin artmasını təmin edəcək, QHT sektorunda hesabatlılığı, şəffaflığı və səmərəliliyi artıracaq, vətəndaş cəmiyyəti institutlarının güclənməsinə və inkişafına əlavə stimul verəcək.

Deputat Hikmət Məmmədov məsələ barədə bəzi fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfərə gedib



Noyabrın 18-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyasının Şura və 61-ci plenar iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türkmənbaşı Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Türkmənistan Məclisinin Elm, təhsil, mədəniyyət və gənclər siyasəti komitəsinin sədri Bayramgözəl Muradova, MDB PA-nın baş katibi Dmitri Kobitski, Azərbaycanın Türkmənistandakı səfiri Qismət Gözəlov, Milli Məclisin MDB PA-dakı səlahiyyətli nümayəndəsi Aydın Cəfərov və digər rəsmi şəxslər qarşılayıblar.

"Azərbaycan"

Azərbaycan-Almaniya münasibətləri müzakirə edilib



Noyabrın 18-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadeful ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Almaniya münasibətlərinin cari vəziyyəti, ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Gələn il Azərbaycan və Almaniya arasında diplomatik münasibətlərin qurulmasının 35-ci ildönümünün qeyd ediləcəyi məmnunluqla xatırlanaraq, iki ölkənin liderləri səviyyəsində təmasların mövcud strateji tərəfdaşlıq gündəliyinin formalaşdırılmasında müstəsna rolu vurğulanıb.

Siyasi dialoqun, o cümlədən Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin ölkələrimiz arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, ikitərəfli gündəliyin aktual məsələlərinin nəzərdən keçirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

İqtisadi əməkdaşlığın münasibətlərin əsas istiqamətlərindən biri olduğuna diqqət çəkilib, ticarət dövriyyəsinin artım dinamikası, Almaniya şirkətlərinin Azərbaycandakı fəaliyyəti, investisiya imkanları və biznes əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Enerji sahəsində əməkdaşlığın, o cümlədən Azərbaycanın Almaniyaya qaz ixracına başlamasının münasibətlərdə yeni mərhələ açdığı qeyd edilib. Sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti və texnologiyalar sahələrində əməkdaşlıq perspektivlərinə toxunulub.

Azərbaycan ilə Almaniya arasında həm sərnişin, həm də yükdaşımaları məqsədilə uçuşların və onların təyinat məntəqələrinin sayının artırılması imkanları nəzərdən keçirilib.

Almaniya şirkətləri Orta dəhliz, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonasının yaratdığı imkanlardan faydalanmağa, habelə işğaldan azad edilmiş ərazilərdəki bərpa və yenidənqurma layihələrində iştiraka dəvət edilib.

Humanitar sahədə əlaqələrin, xüsusilə təhsil, elm, mədəniyyət, turizm və regionlararası əməkdaşlığın xalqlar arasında qarşılıqlı anlaşmanın gücləndirilməsində roluna toxunulub.

Almaniyanın ali təhsil müəssisələrində çox sayda azərbaycanlı tələbənin təhsil alması məmnunluqla qeyd olunub, ali məktəblər, o cümlədən texniki təhsil ocaqları arasında mübadilələrin genişləndirilməsi, Azərbaycanda alman dilinin tədrisi imkanlarının artırılması və eləcə də Azərbaycan-Almaniya Universitetinin təsisi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanda tarixən mövcud olmuş alman icmalarının irsinin ikitərəfli münasibətlərin mühüm mədəni bağlarından biri olduğu qeyd edilib.

Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, regional məsələlər, Cənubi Qafqazda mövcud vəziyyət və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi barədə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı və mina təhlükəsinin yaratdığı çətinliklər barədə həmkarına məlumat verib.

Nazirlər tərəfindən Şərqi Avropa və Yaxın Şərq regionlarında davam edən münaqişələrin siyasi dialoq və diplomatik danışıqlar yolu ilə həllinin vacibliyinə dair həmfikirlik ifadə olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Almaniya Bundestaqının deputatları Milli Məclisdə olublar

Milli Məclisin deputatları - Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Nurlan Həsənov və qrupun üzvü Kamal Cəfərov Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun ölkəmizə səfəri çərçivəsində nümayəndə heyətinin üzvü olan Almaniya Bundestaqının deputatları Daniel Kölbi və Lamya Kaddor ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb, bu baxımdan parlamentlərarası əlaqələrin, parlament diplomatiyasının əhəmiyyəti qeyd olunub. Söhbət zamanı parlament dostluq qrupları arasında əməkdaşlığın mövcud vəziyyəti və qarşılıqlı maraq doğuran digər mövzularda fikir mübadiləsi aparılıb.

Almaniya Bundestaqının deputatları Milli Məclisin inzibati binası və burada yaradılmış iş şəraiti ilə də tanış olublar.

"Azərbaycan"

Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində əməkdaşlıq layihələri nəzərdən keçirilib

Noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ-nin sülh missiyaları üzrə xüsusi nümayəndəsinin baş müşaviri Arye Laytstounu qəbul edib.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, habelə regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində əməkdaşlıq istiqamətləri üzrə konkret layihələrin perspektivlərini nəzərdən keçiriblər. Bununla yanaşı, regional bağlantıların, Orta dəhlizin və nəqliyyat-logistika imkanlarının inkişafı məsələləri müzakirə olunub. Bu çərçivədə, eyni zamanda TRIPP layihəsinin regional nəqliyyat və iqtisadi bağlantıların gücləndirilməsinə, habelə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantının təmin edilməsinə töhfəsi vurğulanıb.

Görüşdə həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi, eləcə də digər qarşılıqlı maraq doğuran istiqamətlər ətrafında da fikir mübadiləsi aparılıb.

Parlamentdə Ukrayna Ali Radasının nümayəndə heyəti ilə görüş

Noyabrın 18-də Milli Məclisin Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Ukrayna Ali Radasının deputatları ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İşçi qrupunun rəhbəri Əlibala Məhərrəmzadə Azərbaycan-Ukrayna münasibətlərinin müxtəlif istiqamətlər üzrə inkişaf etdiyini bildirib. O, yüksəksəviyyəli siyasi dialoqun, qarşılıqlı etimad və dəstəyin əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaratdığını vurğulayıb. Həmçinin xalqlarımız arasında tarixən formalaşmış dostluq münasibətlərinin və ortaq dəyərlərin dövlətlərarası əlaqələrin möhkəmlənməsində mühüm rol oynadığını qeyd edib.

Ukrayna Ali Radasının deputatı Maksim Tkaçenko göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, nümayəndə heyətinin Qarabağa səfərindən məmnunluğunu ifadə edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, bölgənin inkişafı istiqamətində mühüm addımlar atıldığını vurğulayıb. Bununla belə, Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyi yüksək qiymətləndirərək, bu dəstəyin iki ölkə arasında dostluq və həmrəylik münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini bildirib.

Daha sonra Milli Məclisin Ukrayna ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvləri Asim Mollazadə, Kamran Bayramov və Cavanşir Feyziyev, eləcə də Ukrayna Ali Radasının deputatları çıxış ediblər.

Çıxışlarda Azərbaycan və Ukrayna arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişafından, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın əhəmiyyətindən bəhs olunub. Parlamentlərarası əlaqələrin dövlətlər arasında siyasi dialoqun dərinləşdirilməsində, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsində mühüm rol oynadığı vurğulanıb, parlament diplomatiyasının əhəmiyyəti qeyd olunub.

"Azərbaycan"

Azərbaycan və Avstriya XİN-ləri arasında siyasi məsləhətləşmələr aparılıb

Noyabrın 18-də Bakıda Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) ilə Avstriya Respublikasının Avropa və Beynəlxalq İşlər üzrə Federal Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Elnur Məmmədov, Avstriya nümayəndə heyətinə isə Avropa və Beynəlxalq İşlər üzrə Federal Nazirliyinin baş direktoru Hanna Liko rəhbərik edib.

Məsləhətləşmələr zamanı Azərbaycan-Avstriya münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, bu çərçivədə həyata keçiriləcək tədbirlər barədə fikir mübadiləsi aparılıb, habelə regional və beynəlxalq məsələlər nəzərdən keçirilib.

Tərəflər siyasi dialoqun dərinləşdirilməsi məqsədilə qarşılıqlı rəsmi səfərlərin həyata keçirilməsinin, müntəzəm təmasların davam etdirilməsinin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

İqtisadi əməkdaşlığın genişləndirilməsi üçün prioritet istiqamətlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin mədəniyyət, elm və təhsil, turizm sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd olunub.

Məsləhətləşmələr zamanı regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa, yenidənqurma və minatəmizləmə işləri barədə məlumat təqdim olunub. Tərəflər beynəlxalq gündəlikdə dayanan məsələlər ətrafında fikir mübadiləsi aparıb, çoxtərəfli platformalar və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq mövzusuna diqqət yetiriblər. Məsləhətləşmələrdə, habelə qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.



Azərbaycan-Almaniya əlaqələrində yeni səhifə

Bakı və Berlin arasında qarşılıqlı etimada dayanan əlaqələr bütün Avrasiya məkanının sabitliyinə və rifahına xidmət edir

Bu gün Avrasiya məkanında nəqliyyat qovşağı və etibarlı enerji təchizatçısı kimi mövqeyini tam möhkəmləndirən Azərbaycanla Avropanın aparıcı iqtisadi gücü olan Almaniya arasındakı münasibətlər yeni müstəviyə qədəm qoyub. Təkcə 2026-cı ilin yanvarında Azərbaycan qazının birbaşa Almaniya bazarına çıxarılması və iyulda Berlində imzalanan strateji sənədlər ikitərəfli əlaqələrin diplomatik çərçivədən çıxaraq real geosiyasi və iqtisadi ittifaqa çevrildiyini göstərir. Almaniyanın xarici işlər naziri Yohann David Vadefulun noyabrın 17-də Bakıya etdiyi səfər isə bu tərəfdaşlığın həm regional sülhə, həm də Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrin növbəti təsdiqi oldu.

İkitərəfli münasibətlər daha da genişlənib

Almaniya 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk Avropa dövlətlərindən biri olub. O zamandan qurulan diplomatik əlaqələr və hər iki ölkədə açılan səfirliklər otuz ildən artıq müddətdə davamlı siyasi dialoqa zəmin yaradıb. 2027-ci ildə diplomatik münasibətlərin 35-ci ildönümünü qeyd etməyə hazırlaşan Azərbaycan və Almaniya bu yubileyə artıq sadə tərəfdaş kimi deyil, strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş dövlətlər kimi gedir. İnkişaf edən əlaqələr bu ilin iyul ayında Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri ilə daha da dinamiklik qazandı.

Berlində keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan strateji sənədlər və verilən bəyanatlar Azərbaycan ilə Almaniya arasında tərəfdaşlığın yalnız regional deyil, qlobal geosiyasi çəkiyə malik olduğunu bir daha sübut etdi. Səfər çərçivəsində Prezident İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts tərəfindən imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" münasibətlərin gələcək inkişaf istiqamətlərinin yol xəritəsi oldu. Bəyannamə siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, müdafiə, texnologiya, elm və təhsil sahələrini vahid strateji çərçivədə birləşdirir. Sənəddə nazirlərarası məsləhətləşmələrin və Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyəti vasitəsilə əməkdaşlığın davamlılığını təmin etmək əksini tapıb. Bu vacib sənəd iki ölkə arasında əlaqələrə yeni nəfəs verdi.

Prezident İlham Əliyev Berlindəki bəyanatında bu tarixi anın əhəmiyyətini belə ifadə etmişdi: "Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir".

Kansler Fridrix Mertsin bu sənədi "ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin təməl daşı" adlandırması isə rəsmi Berlinin Bakı ilə əməkdaşlığa nə qədər ciddi yanaşdığını göstərdi: "Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və "Cənub qaz dəhlizi" ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir".

Enerji sahəsində genişmiqyaslı əməkdaşlıq

2022-ci ildən - Rusiya-Ukrayna müharibəsinin başlamasından etibarən Avropada dəyişən enerji xəritəsi qitənin enerji təhlükəsizliyində Azərbaycanın rolunu vazkeçilməz etdi. Almaniya kimi nəhəng sənaye ölkəsi üçün etibarlı enerji təchizatçıları ilə işləmək həyati əhəmiyyət daşıyır. 2025-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 1,4 milyard dollara çatması bu marağın iqtisadi göstəricisidir. Lakin 2026-cı ilin yanvar ayı bu sahədə yeni bir səhifə açdı, Azərbaycan təbii qazının birbaşa Almaniyaya ixracına başlanıldı. Prezident İlham Əliyev Berlin səfəri zamanı səsləndirdiyi fikirlərlə bu əməkdaşlığın miqyasını aydın şəkildə ortaya qoymuşdu: "Bu ildən başlayaraq, Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə "yaşıl enerji"sini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır".

Göründüyü kimi, Bakı və Berlin münasibətləri yalnız ənənəvi enerji ehtiyatları ilə məhdudlaşmır, həm də alternativ enerji və gələcəyin "yaşıl texnologiya"ları üzərində qurulur. İyul ayında yaradılan Azərbaycan-Almaniya Biznes Şurası isə iki ölkənin iş adamlarını bir araya gətirərək bu potensialı real layihələrə çevirmək üçün effektiv platforma rolunu oynayır.

Bu gün dünyada baş verən mürəkkəb proseslər Avropa ilə Asiyanı birləşdirən ən etibarlı marşrut kimi Orta dəhlizin önəmini sürətlə artırır. Siyasi analitiklərin də vurğuladığı kimi, Rusiya-Ukrayna müharibəsi fonunda Şimal marşrutuna alternativ axtaran Avropa İttifaqı üçün Azərbaycanın coğrafi mövqeyi və qurduğu mühüm nəqliyyat infrastrukturu strateji əhəmiyyət kəsb edir. Məhz bu amillər Azərbaycanı Cənubi Qafqazın açar dövlətinə və "Avropa Siyasi Birliyi" kimi mühüm platformaların əsas iştirakçısına çevirib.

Noyabrın 17-də Prezident İlham Əliyev Almaniya xarici işlər naziri Yohann David Vadefulun başçılıq etdiyi nümayəndə heyətini qəbul edən zaman da Orta dəhlizin inkişafındakı Azərbaycanın mühüm roluna toxunulub, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Digər tərəfdən, iqtisadi və nəqliyyat layihələrinin tam gücü ilə işləməsi üçün regionda davamlı sülhün təmin olunması əsas şərtdir. Almaniyanın xarici işlər nazirinin Bakıya səfəri ərəfəsində və səfər zamanı verdiyi mesajlar Berlinin bu prosesə balanslı və konstruktiv yanaşmasından xəbər verir. Ötən il sülh müqaviləsinin paraflanmasını mühüm mərhələ kimi qiymətləndirən nazir Cənubi Qafqazın dönüş nöqtəsində olduğunu vurğulayaraq bildirib ki, davamlı sülh və açıq sərhədlər təkcə region xalqları üçün deyil, bütövlükdə Avropa qonşuluğunun təhlükəsizliyi üçün faydalıdır.

Xarici işlər naziri Ceyhun Bayramovun almaniyalı həmkarı Yohann Vadeful ilə görüşdə işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı və mina təhlükəsinin yaratdığı çətinliklər barədə təqdim etdiyi faktlar, eləcə də Orta dəhlizin inkişafı, Ələt Azad İqtisadi Zonası və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və inkişaf layihələrində alman şirkətləri üçün mövcud imkanları nəzərə çarpdırılması həm postmünaqişə dövrünün reallıqlarını beynəlxalq tərəfdaşların diqqətinə çatdırmaq, həm də real iqtisadi imkanları göstərmək baxımından mühüm addımdır.

Almaniya xarici işlər nazirinin Bakı səfərindən sonra "X" sosial şəbəkəsində Azərbaycanı həm Avropa İttifaqı, həm də Almaniya üçün etibarlı tərəfdaş adlandırması artıq formalaşmış siyasi reallığın etirafıdır: "Strateji gündəliyimiz çərçivəsində münasibətlərimizi birlikdə daha da dərinləşdiririk".

Azərbaycan ilə Almaniyanın münasibətləri bu gün enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, "yaşıl iqtisadiyyat" və regional sülh quruculuğu kimi qlobal əhəmiyyətli təməllər üzərində dayanır. Bakı və Berlin arasında qurulan və qarşılıqlı etimada dayanan bu əlaqələr təkcə iki ölkənin deyil, bütün Avrasiya məkanının sabitliyinə və rifahına xidmət edir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Bakı-Berlin münasibətləri yeni inkişaf mərhələsindədir

Almaniyanın xarici işlər naziri Yohan David Vadefulun Bakıya rəsmi səfəri Almaniya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və regional proseslərdə Berlinin fəal rol almaq istəyini təsdiqləyir. Almaniyanın XİN rəhbərinin Prezident İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramovla apardığı danışıqlar iki ölkə arasındakı əlaqələrin yeni geosiyasi və iqtisadi reallıqlar fonunda daha da dərinləşdiyini göstərir. Bu görüş Azərbaycanla Almaniya arasında siyasi dialoqun, qarşılıqlı etimadın möhkəmləndirilməsi, ikitərəfli gündəliyin aktual məsələlərinin nəzərdən keçirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olacaq.



Milli Məclisin deputatı Müşfiq CƏFƏROV qəzetimizə açıqlamasında dedi ki, görüşdə iqtisadi əməkdaşlığın münasibətlərin əsas istiqamətlərindən biri olduğuna diqqət çəkilib, ticarət dövriyyəsinin artım dinamikası, Almaniya şirkətlərinin Azərbaycandakı fəaliyyəti, investisiya imkanları və biznes əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti və texnologiyalar sahələrində əməkdaşlıq perspektivlərinə toxunulub. "Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, regional məsələlər, Cənubi Qafqazda mövcud vəziyyət və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesi barədə fikir mübadiləsi aparılıb. Enerji sahəsində əməkdaşlığın, o cümlədən Azərbaycanın Almaniyaya qaz ixracına başlamasının münasibətlərdə yeni mərhələ açdığı, sözsüz ki, realdır", - deyə o əlavə etdi.

Deputat xatırlatdı ki, Prezident İlham Əliyevin iyul ayında Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən görüşlər və aparılan səmərəli müzakirələr iki ölkə arasında əlaqələrin inkişafına təkan verib: "Bu səfər zamanı "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə", "Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə" imzalanıb. Bu sənəd iki ölkə arasında iqtisadi münasibətlərin yeni institusional mərhələyə keçidinə, dövlət qurumları ilə özəl sektor arasında sistemli, davamlı və nəticəyönümlü dialoq mexanizminin formalaşdırılmasına təkan verib. Biznes Şurası isə Azərbaycan və Almaniyanın biznes dairələri arasında birbaşa əlaqələrin genişləndirilməsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi üçün mühüm platformadır".

M.Cəfərov vurğuladı ki, bu gün Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyindəki rolu danılmazdır. Bu baxımdan, Almaniya da Azərbaycanla enerji sahəsində əməkdaşlığa üstünlük verir. Ölkəmiz bu ildən etibarən Almaniyaya qaz ixrac edir. Həmçinin ötən il Azərbaycan-Almaniya arasında ticarət dövriyyəsi 1,4 milyard ABŞ dollarına çatıb.

Deputat vurğuladı ki, bütün bunlar Bakı və Berlin arasında iqtisadi sahədə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bir daha təsdiqləyir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Bakı Dialoqunun yekun Bəyannaməsi BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb



Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə 2026-cı il oktyabrın 7-10-da Bakı Dialoqu çərçivəsində keçirilmiş "İtkin düşmüş şəxslər probleminin həllində etimadın gücləndirilməsi və effektiv mexanizmlərin inkişaf etdirilməsi" mövzusunda IV Beynəlxalq Konfransın yekununda qəbul edilmiş Bəyannamə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi qismində yayılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin BMT-nin Baş katibinə ünvanladığı 27 oktyabr 2026-cı il tarixli məktuba əlavə edilmiş Bəyannamə A/81/462-S/2026/849 nömrəsi ilə Baş Assambleyanın 81-ci sessiyasının gündəliyinin müvafiq bəndləri üzrə və Təhlükəsizlik Şurasının sənədi kimi dövriyyəyə buraxılıb.

Bəyannamədə silahlı münaqişələr nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması, ailələrin yaxınları barədə məlumat almaq hüququnun təmin edilməsi, fərdi və kütləvi dəfn yerlərinə dair məlumatların mübadiləsi, insan qalıqlarının təhlükəsiz və elmi əsaslarla aşkar edilməsi, identifikasiyası və qaytarılması, habelə beynəlxalq əməkdaşlığın gücləndirilməsi ilə bağlı mühüm müddəalar yer alıb.

Sənəddə dövlətlər, beynəlxalq və qeyri-hökumət təşkilatları arasında təcrübə mübadiləsinin, müasir məhkəmə-ekspertiza metodlarının və yeni texnologiyaların tətbiqinin genişləndirilməsi təşviq edilir. Xüsusilə BMT və digər beynəlxalq təşkilatlar silahlı münaqişələr nəticəsində itkin düşmüş şəxslər probleminin həllinə yönəlmiş xüsusi beynəlxalq mexanizmin yaradılmasına dəstək göstərməyə çağırılır.

Bəyannamədə Bakı Dialoqunun beynəlxalq təcrübə mübadiləsi, etimadın möhkəmləndirilməsi və ailələrin yaxınlarının taleyi barədə cavab almasına yönəlmiş praktiki əməkdaşlıq üçün getdikcə daha əhəmiyyətli platformaya çevrildiyi vurğulanır. Həmçinin konfransın təşkilinə və itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində milli və beynəlxalq səylərin konstruktiv müzakirəsinə imkan yaradılmasına görə Azərbaycan Respublikasının Dövlət Komissiyasına minnətdarlıq ifadə olunur.

Bəyannamənin BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılması Azərbaycanın itkin düşmüş şəxslər probleminin beynəlxalq səviyyədə diqqət mərkəzində saxlanılması və bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşəbbüslərinin davamı baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın KSQT yanında daimi nümayəndəsi etimadnaməsini təqdim edib

Azərbaycanın Niderlanddakı səfiri Anar Əcəmov Kimyəvi Silahların Qadağan Olunması Təşkilatı (KSQT) yanında ölkəmizin daimi nümayəndəsi kimi etimadnaməsini təşkilatın baş direktoru Sabrina Dallafioraya təqdim edib.

AZƏRTAC xəbər verir ki, təşkilatın Haaqadakı mənzil-qərargahında etimadnamənin təqdim edilməsindən sonra keçirilən görüşdə Azərbaycan ilə KSQT arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub.

Görüşdə Azərbaycanın Kimyəvi Silahlar Konvensiyasını ilk imzalayan dövlətlərdən biri olduğu, 2000-ci ildən təşkilatın üzvü kimi onun fəaliyyətində fəal iştirak etdiyi və 2017-2019-cu illərdə KSQT-nin İcraiyyə Şurasında təmsil olunduğu vurğulanıb. Azərbaycanın təşkilatın Kimyəvi və Texnoloji Mərkəzinə könüllü maliyyə töhfəsi vermək və praktiki əməkdaşlığı genişləndirmək niyyəti də diqqətə çatdırılıb.

KSQT-nin baş direktoru Azərbaycanın təşkilatın fəaliyyətinə verdiyi töhfələri yüksək qiymətləndirib.

Tərəflər həmçinin kimyəvi silahların yayılmasının qarşısının alınması istiqamətində beynəlxalq səyləri, müasir çağırışları və çoxtərəfli əməkdaşlığın əhəmiyyətini müzakirə ediblər. Peşəkar hazırlıq, kimyəvi təhlükəsizlik, potensialın artırılması və ekspert mübadiləsi sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.



Amerika Birləşmiş Ştatlarının Manhetten bölgəsində 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə qaldırılan Azərbaycan Bayrağının erməni təşkilatlarının təşəbbüsü ilə endirilməsi barədə yayılan məlumatlar həqiqəti əks etdirmir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, Azərbaycanın Qarabağda əldə etdiyi tarixi Zəfər təkcə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası baxımından deyil, həm də beynəlxalq münasibətlər sistemində yeni reallıqların formalaşması və dünya ictimaiyyətinin düzgün məlumatlandırılması baxımından mühüm əhəmiyyət daşıyır.

"Azərbaycan bayrağı ABŞ-də 7 gün ərzində qaydalara uyğun dalğalanıb"

Bu prosesdə Amerika Birləşmiş Ştatlarında yaşayan soydaşlarımızın fəaliyyəti xüsusi diqqətə layiqdir. ABŞ-dəki Azərbaycan icmasının üzvləri hər il 8 Noyabr - Zəfər Günü, 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə müxtəlif ştatlardakı inzibati və ictimai mərkəzlərin önündə Azərbaycan bayrağının qaldırılması mərasimlərini təşkil edirlər. Bununla yanaşı, hər il "Times Square" meydanındakı çoxmərtəbəli binaların iri LED ekranlarında ölkəmizin tarixi Zəfəri ilə bağlı videoçarxlar və posterlər nümayiş etdirilir. Dünyanın müxtəlif ölkələrindən milyonlarla insanın ziyarət etdiyi bu məkanda Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması mühüm rəmzi və siyasi məna daşıyır.

Komitə bildirib ki, artıq bütün cəbhələrdə məğlub olmuş erməni diasporunun hər il bu prosesə qarşı çıxmasına baxmayaraq, ABŞ-də kifayət qədər güclənən Azərbaycan diasporu bu il də bayraqqaldırma mərasimlərini uğurla həyata keçirib.

Məhz bu reallıqlar fonunda bəzi erməni mənbələrinin yaydığı dezinformasiyalarda Manhettendə 8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə diasporumuzun təşəbbüsü ilə qaldırılan Azərbaycan Bayrağının guya Amerikanın Erməni Milli Komitəsinin (ANCA) təşəbbüsü ilə endirildiyi bildirilir.

Bayrağın endirilməsi barədə yayılan məlumatlarda bu qərarın kim tərəfindən və hansı hüquqi əsasla verildiyinə dair isə heç bir mötəbər sübut göstərilmir.

Diasporla İş üzrə Dövlət Komitəsi bildirir ki, bayrağın qaldırılması və həmin yerdə dalğalanması prosesi, adətən, bir həftə davam edir. Azərbaycan bayrağı da qaydalara uyğun olaraq yeddi gün ərzində qaldırıldığı məkanda dalğalanıb. Öz uğursuzluqlarını hay-küy və dezinformasiya ilə pərdələməyə çalışan erməni təşkilatlarının və diasporunun bu prosesə təsir imkanları yoxdur.

Təbliğat uğursuzluğunu ört-basdır etməyə çalışan erməni diasporu nümayəndələrinin yaydıqları əsassız məlumatlarda ABŞ dövlət rəsmilərinin adları da hallandırılır. Dövlət rəsmilərinin adlarından manipulyasiya vasitəsi kimi istifadə edilməsi, onların mövqelərinin təhrif olunması və ictimai rəyin yanlış istiqamətə yönəldilməsi ciddi hüquqi məsuliyyət yaradır.

"ABŞ-də fəaliyyəti ilə bağlı suallar doğuran, real nəticələr əldə edə bilməyən erməni diasporunun Azərbaycan bayrağının nümayişi ətrafında süni qalmaqal yaratmaq cəhdləri təsadüfi deyil. Bu cəhdlər, daha dəqiq ifadə etsək, erməni diasporunun dezinformasiya və manipulyasiya ilə müşayiət olunan siyasi isteriyası uğursuz təbliğat fəaliyyətinə bəraət qazandırmaq, xərclənən maliyyə vəsaitlərinin guya səmərəli istifadə edildiyi görüntüsünü yaratmaq və gələcək maliyyə dəstəyini qoruyub saxlamaq məqsədi daşıyır.

Cəmiyyətə dezinformasiyalara inanmamaq, media nümayəndələrinə isə xaricdəki Azərbaycan icmalarının uğurları ilə bağlı erməni mənbələrinin yaydığı məlumatlara münasibətdə diqqətli olmaq tövsiyə olunur", - deyə komitənin məlumatında vurğulanıb.

2027-ci ilin dövlət büdcəsi dayanıqlı inkişaf və sosial rifah fəlsəfəsinə söykənir

Dünyada yaşanan gərginliklər, qlobal çağırışlar və beynəlxalq iqtisadiyyatdakı qeyri-müəyyənliklər fonunda hər bir müstəqil dövlətin inkişaf xətti onun daxili iqtisadi potensialından, maliyyə müstəqilliyindən birbaşa asılıdır. Mürəkkəb geosiyasi və iqtisadi reallıqlar fonunda milli iqtisadiyyatın dayanıqlılığını qoruyan, strateji hədəfləri reallığa çevirən həlledici maliyyə mexanizmi dövlət büdcəsidir. Büdcə sadəcə ilin gəlir və xərclərini əks etdirən rəqəmsal cədvəl, yaxud quru proqnozlar toplusu deyil, ölkənin iqtisadi gücünü, sosial məsuliyyətini, təhlükəsizlik prioritetlərini və qarşıdakı dövr üçün müəyyənləşdirdiyi inkişaf fəlsəfəsini özündə birləşdirən ali maliyyə sənədi, iqtisadi və sosial proseslərin tənzimlənməsi üçün əsas vasitədir.

Bu mənada Azərbaycanda ildən-ilə artan büdcə gəlirləri, genişlənən maliyyə imkanları ölkəmizin iqtisadi intibahının, dayanıqlı inkişaf modelinin əyani təzahürü və təsdiqidir. Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilən, parlament komitələrində hərtərəfli müzakirə olunan "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi, eləcə də Dövlət Sosial Müdafiə Fondunun, İşsizlikdən Sığorta Fondunun büdcələri də yeni tarixi dövrün çağırışlarına cavab verən inkişaf kursunun hüquqi bazası, möhkəm təməlidir. Ümumiyyətlə, Azərbaycanın formalaşdırdığı tərəqqi modeli sübut edir ki, əldə olunan hər bir iqtisadi uğur, reallaşdırılan irimiqyaslı layihə və yaradılan dayanıqlı maliyyə bazası dövlətimizin başçısının qətiyyətli siyasi iradəsinin, düşünülmüş strateji kursunun və hər şeydən əvvəl, Azərbaycan vətəndaşının təhlükəsizliyinə və rifahına hesablanmış dövlət siyasətinin məntiqi nəticəsidir.

Bu gün Azərbaycan regional proseslərə təsir göstərən, müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq edən, çoxtərəfli platformalarda fəal iştirak edən və qlobal siyasi arenada orta güc statusuna malik nüfuzlu dövlət kimi tanınır. İqtisadi müstəvidə isə ölkəmiz strateji enerji resurslarını regional əməkdaşlığın və iqtisadi inteqrasiyanın mühüm vasitəsinə çevirən, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edən güclü tərəfdaş dövlətdir. Cari ilin ötən dövründə qazanılan nailiyyətlər, xüsusilə 10 ay ərzində dövlət büdcəsinin 4,8 milyard manat profisitlə icra olunması və strateji valyuta ehtiyatlarımızın 89,4 milyard ABŞ dollarına çatması 2027-ci ilin büdcə zərfinin formalaşması üçün etibarlı iqtisadi zəmin formalaşdırıb.

Sosialyönümlü büdcə, makroiqtisadi sabitlik və fiskal dayanıqlılıq

Dünya iqtisadiyyatında artım tempinin azalması, enerji bazarlarında müşahidə olunan qiymət dalğalanmaları fonunda ölkəmizin 2027-ci il üçün dövlət büdcəsi layihəsi ehtiyatlı, uzaqgörən və mühafizəkar makroiqtisadi proqnozlara əsaslanır. 2027-ci ilin dövlət büdcəsi ölkəmizin strateji inkişaf hədəflərinin reallaşdırılmasına, müdafiə və təhlükəsizlik imkanlarının artırılmasına, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinin davam etdirilməsinə, sosial müdafiə tədbirlərinin gücləndirilməsinə xidmət edir. Eyni zamanda təhsil, səhiyyə, elm, kənd təsərrüfatı, infrastruktur və digər sahələrə ayrılan vəsaitlərin ölkəmizin uzunmüddətli inkişafına, əhalinin rifahının yüksəldilməsinə və regionların iqtisadi fəallığının artırılmasına töhfə verəcəyi şübhəsizdir.

Ən mühümü odur ki, gələn ilin büdcə zərfi dövlətin sosial siyasətinin növbəti ildə daha da gücləndiriləcəyindən xəbər verir. Büdcə xərclərinin 18,7 milyard manatının və ya 44,2 faizinin sosialyönümlü olması bunu bir daha təsdiq edir. Bu məbləğ 2026-cı illə müqayisədə 1,6 milyard manat və ya 9,2 faiz çoxdur. Sənədə görə, gələn il ölkədə ümumi daxili məhsulun (ÜDM) real ifadədə 2,7 faiz artaraq 141 milyard manata, qeyri-neft-qaz ÜDM-in isə 4,4 faiz artımla 109,1 milyard manata çatacağı gözlənilir ki, bu da qeyri-neft sektorunun ÜDM-də payının 77,4 faizə yüksəlməsini təmin edəcək. Enerji bazarlarındakı qiymətlərin daha çox geosiyasi risklər və təklif məhdudiyyətləri ilə bağlı olduğu nəzərə alınaraq, büdcə hesablamalarında "Azəri Light" markalı neftin bir barelinin orta illik qiyməti 65 ABŞ dolları səviyyəsində götürülüb ki, bu da kifayət qədər məntiqlidir.

Vaxtilə neft gəlirləri hesabına çəkilmiş magistral yollar, dəmir yolu xətləri, limanlar, enerji və kommunikasiya infrastrukturu üzərində ucalan və siyasi-iqtisadi leksikona "yeni iqtisadiyyat quruculuğu" kimi daxil olan bu mərhələ neft gəlirlərinin yaratdığı imkanları yeni gəlir, yeni ixrac, yeni texnologiya və yeni vergi bazasına çevirməklə milli iqtisadiyyatda kəmiyyət artımından keyfiyyət dəyişikliklərinə keçidi təmin edir.

Cari ilin 1 oktyabr tarixinə dövlət borcunun 23,9 milyard manat olması, xarici borcun ümumi dövlət borcundakı payının 32 faiz təşkil etməsi və ortamüddətli perspektivdə onun mərhələli şəkildə azaldılaraq daxili borcla əvəz edilməsi strategiyası dövlət maliyyəsinin idarə olunmasında yüksək peşəkarlığın və gələcək nəsillərə ağır borc yükü miras qoymamaq niyyətinin göstəricisidir. Eyni zamanda xidmət sektorunun (ticarət, nəqliyyat, logistika, turizm, informasiya və rabitə) ÜDM-də payının 45 faizə çatması, ötən ilin tədiyyə balansına əsasən xidmət ixracımızın 8,6 milyard dollar, xidmət idxalımızın isə 10,3 milyard dollar təşkil etməsi yüksək əlavə dəyər yaradan xidmət sahələrinin inkişafı üçün geniş imkanlar açır. İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun uğurla keçirilməsi, cari ilin 10 ayında qeyri-neft-qaz sektorunda özəl investisiyaların 18 faizədək artması və cari ilin yekununa qeyri-neft-qaz mal ixracımızın 4,2 milyard ABŞ dollarını üstələyəcək olması özəl kapitalın səfərbər edildiyini təsdiqləyir.



Büdcə gəlirlərinin strukturu və qeyri-neft sektorunun artan rolu

İqtisadiyyatın şaxələndirilməsi, şəffaflığın artırılması və özəl sektorun təşviqi istiqamətində həyata keçirilən islahatlar dövlət gəlirlərinin keyfiyyətcə yenilənməsini şərtləndirir. Qanun layihəsinə əsasən, 2027-ci ildə dövlət büdcəsinin gəlirləri cari ilin proqnozu ilə müqayisədə 645 milyon manat (1,7 faiz) artaraq 39 milyard 254 milyon manat proqnozlaşdırılır ki, bunun da 60,6 faizi (23,8 milyard manatı) qeyri-neft-qaz sektorunun, 39,4 faizi (15,5 milyard manatı) isə neft-qaz sektorunun payına düşəcək. İcmal büdcənin 47,6 milyard manatlıq gəlirlərinin isə 64,5 faizini qeyri-neft sektoru, 35,5 faizini isə neft-qaz sektoru təşkil edəcək ki, bu da cari illə müqayisədə qeyri-neft gəlirlərinin payının icmal büdcədə 1,5, dövlət büdcəsində isə 3,2 faiz artması deməkdir. Gələn ilin dövlət bürclərinin xərcləri isə 42 milyard 400 milyon manat proqnozlaşdırılır ki, bu da 2026-cı illə müqayisədə 696 milyon manat çoxdur.

İqtisadiyyatın şaxələndirilməsi və özəl sektorun təşviqi sayəsində dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun rolunun getdikcə artması ölkəmizin iqtisadi dayanıqlılığının gücləndiyini göstərir. Bu müsbət dinamika fiskal şəffaflığın artırılmasına və makroiqtisadi sabitliyin uzunmüddətli perspektivdə etibarlı şəkildə qorunmasına zəmin yaradır.

Vergi və gömrük orqanlarının xətti ilə daxilolmaların yüksək dinamika göstərməsi də iqtisadiyyatın şəffaflaşması prosesinin real nəticəsidir. Belə ki, 2018-ci ildən bəri aktiv vergi ödəyicilərinin sayı 2 dəfə, ƏDV ödəyicilərinin sayı 3,5 dəfə, aktiv obyektlərin sayı 1,7 dəfə, qeyri-neft-qaz özəl sektorunda bağlanan əmək müqavilələrinin sayı isə iki dəfədən çox artaraq ümumi əmək müqavilələrinin 57 faizinə çatıb. Cari ilin 10 ayında qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının 13 faizdən çox artması qeyri-neft ÜDM-in nominal artım tempini üstələyib. Bu uğurlu dinamikanın davamı olaraq, gələn il dövlət büdcəsi gəlirlərinin 47 faizi Dövlət Vergi Xidmətinin xətti ilə təmin olunacaq. Bu da həm neftdən asılılığın azaldılmasına, həm də strateji ehtiyatların gələcək nəsillər üçün qorunmasına xidmət edir.

Xüsusilə əlamətdardır ki, regionların sosial-iqtisadi inkişafı proqramlarının uğurlu icrası sayəsində 2027-ci ildə bütün rayonlarımız öz gəlirləri hesabına yerli xərclərini tam qarşılayaraq ilk dəfə dotasiyadan tamamilə azad olacaq. Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərclərinin bərabər olmaqla 510 milyon manat müəyyən edilməsi ilə muxtar respublikaya verilən dotasiya 6,4 faiz azalacaq.

Xərclərin bölgüsü və sosialyönümlülük

Dövlət maliyyəsinin şaxələnmiş gəlir mənbələri ölkənin sosial və strateji öhdəliklərini tam həcmdə maliyyələşdirməyə imkan yaradır. Layihəyə əsasən, 2027-ci ildə dövlət büdcəsinin xərcləri cari illə müqayisədə təqribən 696 milyon manat artaraq 42 milyard 400 milyon manat, kəsiri isə 3 milyard 146 milyon manat təşkil edəcək. İcmal büdcənin xərcləri isə 50,4 milyard manat səviyyəsində müəyyənləşdiriləcək. Dövlət büdcəsi xərclərinin 26,4 milyard manatı cari, 13,8 milyard manatı əsaslı, 2,2 milyard manatı isə dövlət borcuna və öhdəliklərinə xidmət xərclərinə yönəldiləcək. Cari xərclərin 90,1 faizinin qeyri-neft gəlirləri hesabına ödənilməsi isə fiskal dayanıqlılığı möhkəmləndirəcək.

Azərbaycan dövlətinin yürütdüyü siyasətin mahiyyətində iqtisadi inkişafla sosial siyasətin vəhdəti dayanır. Məhz bu prinsipin bariz nümunəsi olaraq, 2027-ci ildə sosialyönümlü xərclərə 2026-cı illə müqayisədə 1,6 milyard manat və ya 9,2 faiz artımla 18,7 milyard manat (büdcə xərclərinin 44,2 faizi) vəsait ayrılacaq. Sosial xərclərin böyük hissəsinin davamlı və təkrarlanan öhdəliklərdən ibarət olması onların fasiləsiz icrası üçün etibarlı maliyyə bazası tələb edir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq hazırlanan sayca altıncı sosial islahat paketi çərçivəsində təhsil və elm xərclərinə 5,4 milyard manat, sosial müdafiə və sosial təminata 4,9 milyard manat, səhiyyəyə isə 2,1 milyard manat vəsait nəzərdə tutulub.

Dövlətimizin iqtisadi tərəqqini birbaşa vətəndaşların rifahı ilə əlaqələndirməsi ölkədə həyata keçirilən sosialyönümlü siyasətin dərinliyini və ardıcıllığını nümayiş etdirir. 2027-ci il üçün nəzərdə tutulan rekord maliyyə vəsaiti və növbəti sosial islahat paketi əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi, həmçinin insan kapitalının inkişafı istiqamətində atılan strateji addımların mühüm tərkib hissəsidir. Xüsusilə təhsil, səhiyyə və sosial təminat xərclərinin artırılması iqtisadi artımın real nəticələrinin cəmiyyətin hər bir təbəqəsinin rifahında əks olunduğunu təsdiqləyir.

Xatırladaq ki, son səkkiz ildə 4 milyon vətəndaşı əhatə edən və illik əlavə maliyyə tutumu 8 milyard manat olan beş böyük sosial islahat zərfi nəticəsində minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2,2 dəfə, minimum və orta pensiya 2,9 dəfə, sosial müavinət və təqaüd xərcləri 5 dəfə, yaşayış minimumu 73 faiz, ehtiyac meyarının həddi isə 2,3 dəfə artıb. Cari ilin 10 ayında pensiya ödənişləri 10,3 faiz artaraq 6,5 milyard manat, müavinət, təqaüd və ünvanlı sosial yardım ödənişləri isə 7,9 faiz artaraq 2,1 milyard manat təşkil edib. Orta aylıq pensiya 596 manat, yaşa görə orta aylıq pensiya isə 634 manat olmaqla pensiya ödənişlərinin orta aylıq əməkhaqqına nisbəti 51 faiz təşkil edərək Beynəlxalq Əmək Təşkilatının 40 faizlik tövsiyə olunan həddini üstələyib.

Təhlükəsizlik, iqtisadi fəallıq, aqrar inkişaf və proqram əsaslı idarəetmə

İqtisadi tərəqqi və sosial rifahın davamlılığı hər şeydən əvvəl ölkənin müdafiə qabiliyyətinin, sərhədlərinin toxunulmazlığının və iqtisadi fəallığın yüksək səviyyədə təmin olunmasından asılıdır. Büdcədə təhlükəsizlik və iqtisadi inkişaf xərcləri biri digərini tamamlayan strateji istiqamətlərdir. Təsadüfi deyil ki, 2027-ci ilin büdcə zərfində müdafiə və milli təhlükəsizlik xərclərinə 8,8 milyard manat (büdcə xərclərinin 20,8 faizi; 2026-cı illə müqayisədə 99 milyon manat və ya 1,1 faiz çox), iqtisadi fəaliyyətlə bağlı xərclərə isə 1,1 milyard manat və ya 13,4 faiz artımla 8,9 milyard manat vəsait yönəldilməsi nəzərdə tutulub. Hər iki xərc maddəsi büdcə məxaricində təxminən 21 faiz xüsusi çəkiyə malikdir.

Ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, özünütəminetmə səviyyəsinin yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatına ayrılan vəsait 12,5 faiz və ya 153 milyon manat artırılaraq təqribən 1 milyard 380 milyon manata çatdırılıb ki, bu da iqtisadi fəaliyyət xərclərindən sonra ən yüksək artım tempidir. Eyni zamanda yerli istehsalı mövcud olan məhsullar üzrə dövlət satınalmalarının yerli istehsala yönəldilməsi, süni intellekt texnologiyalarının tətbiqi, rəqəmsal transformasiya və "yaşıl artım" təşəbbüslərinin dəstəklənməsi iqtisadiyyatın modernləşməsini sürətləndirir.

Dövlət maliyyəsinin idarə edilməsində institusional islahatların mühüm istiqaməti olan xərclərin yenidən prioritetləşdirilməsi və səmərəliliyin artırılması məqsədilə proqram və nəticəəsaslı büdcə mexanizminin əhatə etdiyi sektorların sayı 8-ə çatdırılıb. 2025-ci ildə 6,1 milyard manat olan bu mexanizmin maliyyələşmə həcmi 2027-ci ildə 54 dövlət proqramı üzrə 13,9 milyard manata yüksəldilib. Xüsusilə kənd təsərrüfatına ayrılan vəsaitlərin nəticəəsaslı büdcə prinsipi ilə daha sıx uzlaşdırılması aqrar sahədə məhsuldarlığın və ixracın artımına xidmət edəcək. Həmçinin 2027-ci ildə ölkə daxilində və xaricində beynəlxalq tədbirlərin keçirilməsinə 231 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da Azərbaycanın beynəlxalq nüfuzunun və iqtisadi diplomatiyasının güclənməsinə töhfə verir.

Böyük qayıdış proqramı, Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri

Azərbaycanın malik olduğu güclü iqtisadi potensial və müstəqil maliyyə imkanları postmüharibə dövrünün bərpa və yenidənqurma prosesini beynəlxalq yardımlara və ya xarici kreditlərə göz dikmədən, tamamilə öz daxili resursları hesabına həyata keçirməyə imkan verir. İşğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi, müasir infrastrukturun - yol-nəqliyyat şəbəkələrinin, enerji xətlərinin, hava limanlarının, su təchizatı sistemlərinin qurulması, "ağıllı" şəhər və kəndlərin salınması, eləcə də keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin edilməsi hər il olduğu kimi 2027-ci ilin dövlət büdcəsinin də əsas strateji prioritetidir. 2020-2026-cı illərdə işğaldan azad edilmiş torpaqlarımızın bərpası məqsədilə dövlət büdcəsindən ümumilikdə 25 milyard manatdan artıq vəsait sərf olunub. Bu nəhəng sərmayələr sayəsində Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən qurulub, şəhərlər, qəsəbələr, kəndlər salınıb.

Növbəti ildə dövlət büdcəsi xərclərinin üçdəbirinin (13,8 milyard manat) əsaslı xərclərə yönəldilməsi, o cümlədən dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan 5,3 milyard manatlıq investisiya paketinin tərkibində Böyük qayıdış proqramının icrasına məhz 3,4 milyard manat vəsaitin ayrılması quruculuq miqyasının əzmlə davam etdirildiyini göstərir.

Bütün bu reallıqlar bir daha təsdiq edir ki, 2027-ci ilin dövlət büdcəsi həm makroiqtisadi sabitliyin və fiskal dayanıqlılığın qorunmasına, həm də Azərbaycanın dayanıqlı inkişaf və təhlükəsizlik məqsədlərinin qətiyyətlə reallaşdırılmasına xidmət edəcək.

Səttar MÖHBALIYEV,
Milli Məclisin deputatı

Sosial siyasətin maliyyə təminatı

2027-ci ilin dövlət büdcəsi layihəsində sosial rifah yenə prioritetdir



Məlumdur ki, büdcənin hər maddəsinin arxasında insan taleləri, ailələrin güzəranı, sosial təminat, məşğulluq, təhsil və səhiyyə kimi cəmiyyətin gündəlik həyatına birbaşa təsir göstərən sahələr dayanır. Məhz bu baxımdan 2027-ci ilin dövlət büdcəsi layihəsində nəzərdə tutulan sosialyönümlü xərclər sosial siyasətin əsas prioritetlərini aydın əks etdirir.

İlk növbədə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar ardıcıl və sistemli olaraq davam edir. O səbəbdən sayca altıncı sosial islahat paketinin icrası üçün də 2027-ci ilin dövlət və icmal büdcələrində müvafiq maliyyə təminatı yaradılıb. Bu da sosial siyasətin mərhələli və sistemli siyasət əsasında davam etdiyini göstərir. Əslində, sosialyönümlü büdcənin başlıca məqsədi iqtisadi inkişafın nəticələrini vətəndaşların gündəlik həyatında hiss olunan rifaha çevirməkdir. Çünki dövlət büdcəsinin ən mühüm göstəricisi onun rəqəmləri deyil, insanların həyatına gətirdiyi müsbət dəyişikliklərdir. Bu öz konkret ifadəsini 2027-ci ilin büdcə layihəsində də tapır.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin Milli Məclisin plenar iclasında 2027-ci ilin büdcə layihələri ilə bağlı təqdim etdiyi məlumatlar da həmin prioritetlərin maliyyə ifadəsini aydın ortaya qoyub. Nazir bildirib ki, gələn ilin dövlət büdcəsində sosial xərclər üçün 13 milyard manat nəzərdə tutulur. Bu, cari ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 222,7 milyon manat və ya 1,7 faiz artım deməkdir. Daha geniş mənada isə sosialyönümlü xərclərin həcmi 18,7 milyard manata çatacaq. Başqa sözlə, bu istiqamətdə xərclər 1,6 milyard manat və ya 9,2 faiz artacaq.

Diqqətçəkən məqamlardan biri də sosialyönümlü xərclərin dövlət büdcəsindəki payının 44,2 faizə yüksəlməsinin proqnozlaşdırılmasıdır. Bu göstərici cari illə müqayisədə 3,1 faiz artım deməkdir. Ümumi daxili məhsulda (ÜDM) sosialyönümlü xərclərin payının 13,3 faizə çatacağı gözlənilir. Rəqəmlər büdcə siyasətində sosial istiqamətin əhəmiyyətini nümayiş etdirməklə yanaşı, iqtisadi inkişafın nəticələrinin insan kapitalına, sosial təminata və ictimai rifaha yönəldilməsi baxımından da önəm daşıyır.

Sosial siyasətin nəticələri ilk növbədə insanların sosial təminatında, xüsusilə pensiya və müavinətlərin ödənilməsində özünü göstərir. Bu baxımdan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gələn il üçün proqnozlaşdırılan maliyyə göstəriciləri diqqətəlayiqdir. Qarşıdakı il üçün DSMF-nin gəlirlərinin 9 milyard 221 milyon, xərclərinin isə 9 milyard 273 milyon manat olması proqnozlaşdırılır. Fondun xərclərinin 96,5 faizinin, yəni 8 milyard 950 milyon manatının bilavasitə əhaliyə ödənişlərə yönəldilməsi nəzərdə tutulur. Bu məbləğin 2026-cı ilin təsdiq edilmiş rəqəmi ilə müqayisədə 753,6 milyon manat çox olması sosial ödənişlərin maliyyə təminatının genişləndirildiyini göstərir.

Gələn il də əmək pensiyaları indeksləşdiriləcək. Daha dəqiq desək, 2027-ci ildə pensiyaların təqribən 7,5 faiz səviyyəsində indeksləşdirilməsi və bu məqsədlə 575,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Təbii ki, bu addım pensiyaçıların gəlirlərinin inflyasiya və qiymət dəyişiklikləri fonunda qorunması baxımından vacibdir.

Məşğulluq imkanlarının genişləndirilməsi də 2027-ci ilin sosial siyasətinin mühüm istiqamətlərindən biri olacaq. Anar Əliyev gələn il İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 268,9 milyon, xərclərinin isə 319,2 milyon manata çatacağının proqnozlaşdırıldığını söyləyib. Fondun xərclərində nəzərdə tutulan 19,8 faizlik artım aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi üçün əlavə maliyyə imkanları yaradacaq. Belə ki, 2027-ci ildə fondun vəsaiti hesabına 444 min şəxsin aktiv məşğulluq proqramlarına cəlb edilməsi gözlənilir. Bu prinsip işsizliyin azaldılması ilə yanaşı, insanların peşə bacarıqlarının inkişafına, əmək bazarına inteqrasiyasına və dayanıqlı gəlir mənbəyi əldə etməsinə xidmət edir.

Əhalinin sağlamlığının qorunması və tibbi xidmətlərə əlçatanlığın artırılması da diqqət mərkəzindədir. İcbari Tibbi Sığorta Fondunun 2027-ci il üzrə gəlirlərinin 2 milyard 257 milyon, xərclərinin isə 2 milyard 980 milyon manat olması nəzərdə tutulur. Sistemin tam rəqəmsallaşdırılması, vahid elektron reyestrin yaradılması, tibbi-ekspertiza prosesinin avtomatlaşdırılması və xidmətlərin keyfiyyətinə əsaslanan maliyyələşmə modelinin qurulması qarşıda duran əsas vəzifələrdəndir.

Beləliklə, 2027-ci ilin büdcə layihəsində nəzərdə tutulan sosial xərclər pensiya və sosial ödənişlərdən tutmuş məşğulluğa, səhiyyəyə və rəqəmsal xidmətlərə qədər geniş sahəni əhatə edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatların altıncı paketinin maliyyə təminatının yaradılması da həmin siyasətin ardıcıllığını və dəqiq maliyyə resursları ilə dəstəkləndiyini nümayiş etdirir. Bu, 2027-ci ilin dövlət büdcə layihəsinin sosial mahiyyətinin ayrılan vəsaitlərin vətəndaşların rifahının yüksəldilməsinə və sosial təminatının gücləndirilməsinə xidmət etməsində ifadə olunur.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Nəqliyyat dəhlizləri Azərbaycanın Avropa ilə Asiya arasında tranzit rolunu gücləndirir



"Azərbaycanın nəqliyyat və logistika sahəsində həyata keçirdiyi layihələrin ölkənin beynəlxalq iqtisadi və geosiyasi mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verir".

Bunu AZƏRTAC-a açıqlamasında türk siyasi ekspert Cafer Dal bildirib.

Onun sözlərinə görə, müasir dövrdə beynəlxalq ticarət əlaqələrinin genişlənməsi, yükdaşımaların həcminin artması və alternativ nəqliyyat marşrutlarına tələbatın yüksəlməsi tranzit ölkələrin əhəmiyyətini daha da artırır.

"Bu baxımdan Azərbaycan əlverişli coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat infrastrukturu və həyata keçirdiyi regional əməkdaşlıq layihələri ilə Avropa və Asiya arasında mühüm bağlantı mərkəzlərindən birinə çevrilir. Orta dəhliz Azərbaycanın beynəlxalq nəqliyyat sistemində rolunun genişlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu marşrut Çin və Mərkəzi Asiya ölkələrini Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa ilə birləşdirərək yükdaşımalar üçün alternativ imkanlar yaradır. Dəhlizin inkişafı region ölkələri arasında iqtisadi əlaqələrin dərinləşməsinə, tranzit potensialının artırılmasına və beynəlxalq ticarət dövriyyəsinin genişlənməsinə şərait yaradır. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə yanaşı, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi də Azərbaycanın logistika imkanlarının şaxələndirilməsində mühüm rol oynayır. Bu marşrut Şimali Avropa və Rusiya ilə İran, Hindistan və digər Cənubi Asiya ölkələri arasında yükdaşımaların inkişafına xidmət edir. Azərbaycanın bu istiqamətdə infrastruktur imkanlarını genişləndirməsi ölkənin beynəlxalq logistika zəncirlərində iştirakını artırır", - deyə Cafer Dal qeyd edib.

Ekspert vurğulayıb ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası və ölkənin avtomobil yolları şəbəkəsinin inkişafı Azərbaycanın tranzit imkanlarını tamamlayan mühüm amillərdəndir: "Bu layihələrin əlaqələndirilmiş şəkildə inkişafı yükdaşımaların səmərəliliyinin artırılmasına, logistika xərclərinin optimallaşdırılmasına və beynəlxalq daşıyıcılar üçün daha əlverişli şəraitin yaradılmasına imkan verir. Nəqliyyat dəhlizlərinin inkişafı yalnız iqtisadi gəlirlərin artması ilə məhdudlaşmır. Bu proses Azərbaycanın regional əməkdaşlıqda iştirakını genişləndirir, yeni tərəfdaşlıqların formalaşmasına və ölkənin beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyinin möhkəmlənməsinə də xidmət edir".

Cafer Dal əlavə edib ki, qarşıdakı dövrdə Orta dəhliz, "Şərq-Qərb" və "Şimal-Cənub" marşrutları üzrə infrastrukturun modernləşdirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və rəqəmsal logistika həllərinin tətbiqi Azərbaycanın tranzit potensialının daha da artırılmasına imkan yaradacaq. Bu isə ölkənin Avropa ilə Asiya arasında etibarlı nəqliyyat və logistika mərkəzi kimi rolunun genişlənməsinə töhfə verəcək.

Azərbaycan elminin beynəlxalq inteqrasiyasında yeni mərhələ

Asiya Elmlər Akademiyasının Baş Assambleyası və Birinci Yüksək Səviyyəli Asiya Elmi Forumu elmi əməkdaşlıqda yeni imkanlar açır





Müasir dövrdə elmi biliklərin sürətlə yenilənməsi, texnoloji tərəqqinin qlobal xarakter alması və bəşəriyyətin qarşılaşdığı mürəkkəb çağırışlar müxtəlif ölkələrin alimləri arasında daha sıx əməkdaşlığı zərurətə çevirmişdir. Asiyanın böyük intellektual potensialının ortaq elmi məkanda birləşdirilməsi ideyası da məhz bu ehtiyacdan yaranmışdır. Bu ideyanın beynəlxalq akademik təşkilata çevrilməsində təşəbbüskar və təşkilatçı kimi Azərbaycanın görkəmli alimi, geologiya-mineralogiya elmləri doktoru, professor Elçin Xəlilovun xüsusi rolu vardır.

Akademiyanın yaranmasına gedən yol

Akademiyanın yaradılmasına aparan təşkilati prosesin mühüm başlanğıc nöqtəsinin Azərbaycanın paytaxtı Bakıda qoyulması diqqəti cəlb edir. 2024-cü il avqustun 31-dən sentyabrın 1-dək Bakıda Asiya Elmlər Akademiyasının Təşəbbüs Komitəsinin ilk iclası keçirilmişdir. Professor Elçin Xəlilovun rəhbərlik etdiyi bu təşəbbüs Asiya ölkələrinin tanınmış alimlərini, elmi məktəblərini və tədqiqat qurumlarını bir araya gətirən, bilik və təcrübə mübadiləsinə açıq beynəlxalq platformanın formalaşdırılması məqsədinə xidmət edirdi. Həmin günlərdə Bakıda elmi əməkdaşlıq, ətraf mühitin mühafizəsi və "yaşıl gündəlik" mövzularına həsr olunmuş beynəlxalq elmi tədbir də təşkil edilmişdi.

Baş Assambleyası və "Bir kəmər, bir yol: ortaq elmi-texnoloji gələcəyin yaradılması" mövzusunda Birinci Yüksək Səviyyəli Asiya Elmi Forumu keçirilmişdir. Tədbirlərdə 18 ölkədən 100-dən çox nümayəndə - Nobel mükafatı laureatları və nüfuzlu beynəlxalq mükafat sahibləri, milli elmlər akademiyalarının rəhbərləri, tanınmış alimlər, universitet rektorları, dövlət və ictimai xadimlər iştirak etmişlər. Bir sıra qonaqlar plenar iclasa videobağlantı vasitəsilə qoşulmuşlar.

Tədbirlərin əsas təşkilatçısı Asiya Elmlər Akademiyası olmuş, tərəfdaşlar arasında Pakistan, Gürcüstan, Özbəkistan, Tacikistan və Monqolustan elmlər akademiyaları, eləcə də müxtəlif ölkələrin universitetləri və elmi qurumları yer almışlar. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşkilatçı tərəfdaşlardan biri kimi iştirakı ölkəmizin beynəlxalq elmi əməkdaşlığa töhfəsini nümayiş etdirmişdir.

Akademiyanın təşkilati quruluşu və beynəlxalq təmsilçiliyi

Asiya Elmlər Akademiyasının təşkilati sistemini Baş Assambleya, prezident, vitse-prezidentlər, baş katib, rəyasət heyəti və onun bürosu, elmi şura, sahəvi şuralar, komitələr, milli bölmələr, elmi institut və mərkəzlər təşkil edir. Akademiyaya geologiya-mineralogiya elmləri doktoru, professor Elçin Xəlilov rəhbərlik edir. Baş katib Ramil Bəxtizindir. Vitse-prezidentlər sırasında Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, professor Elşən Hacızadə, Çindən Çjan Tsi, Qazaxıstandan Serik İrsaliyev, Qırğızıstandan Akılbek Japarov və digər tanınmış simalar yer alırlar.

2026-cı il oktyabrın 21-də Baş Assambleyada açıqlanan məlumatlara görə, həmin vaxt akademiyanın 26 ölkədən 4 fəxri üzvü, 141 akademiki və 47 assosiativ üzvü vardı; üzvlərin təxminən 90 faizi Asiya ölkələrini təmsil edirdi.

Akademiyanın tərkibində milli elmlər akademiyalarının 9 prezidenti, akademiyaların 12 vitse-prezidenti, milli akademiyaların 60-dan çox akademiki, aparıcı universitetlərin 20-dən artıq rektoru və prezidenti, 20-dən çox elmi-tədqiqat institutu rəhbəri, habelə dövlət və ictimai idarəetmə təcrübəsi olan şəxslər təmsil olunmuşdu. Bu rəqəmlər yeni seçkilərdən əvvəl açıqlanmış göstəricilərdir.

Akademiyanın beynəlxalq elmi çevrəsində Özbəkistan Elmlər Akademiyasının prezidenti, riyaziyyatçı alim Şavkat Ayupov, Tacikistan Milli Elmlər Akademiyasının prezidenti, iqtisadçı alim Qobilcon Xuşvaxtzodə, Pakistan Elmlər Akademiyasının prezidenti Kauser Abdulla Malik, Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, tarixçi Roin Metreveli, Monqolustan Elmlər Akademiyasının prezidenti Demberel Sodnomsambuu, Nobel mükafatı laureatı Takaaki Kajita, UNESCO mükafatı laureatı Atta-ur-Rəhman və digər görkəmli elm nümayəndələri yer alırlar. Onların bir qismi Sanya tədbirlərinə məsafədən qatılmışdır.

Akademiyanın fəaliyyətində ölkələrarası və sahələrarası əlaqələrin qurulmasına xidmət edən milli bölmələr, Qafqaz-Mərkəzi Asiya Regional Mərkəzi, Asiya İqtisadiyyat İnstitutu və digər elmi qurumlar mühüm yer tutur.

Sanya Baş Assambleyası: qərarlar və yeni əməkdaşlıq imkanları

Oktyabrın 20-də keçirilən plenar iclasda akademiyanın prezidenti Elçin Xəlilov vahid Asiya intellektual və akademik məkanının qurulmasını, elmi və texnoloji potensialın birləşdirilməsini təşkilatın başlıca məqsədi kimi səciyyələndirmişdir. İclasda Rae Kvon Çan, Çjan Tsi, Qırğızıstanın keçmiş baş naziri Akılbek Japarov və bir sıra digər elm və ictimaiyyət nümayəndələri çıxış etmişlər. Takaaki Kajita, Atta-ur-Rəhman, Kauser Abdulla Malik, Roin Metreveli, Qobilcon Xuşvaxtzodə və Azərbaycanın səhiyyə naziri Teymur Musayev (Baş nazirin hazırkı müavini - **red.**) isə tədbirə videomüraciətlə qoşulmuşlar.

Plenar iclas çərçivəsində Asiya Elmlər Akademiyası ilə Pakistan Elmlər Akademiyası arasında əməkdaşlıq memorandumu imzalanmış, Tacikistan Milli Elmlər Akademiyası ilə əməkdaşlıq memorandumu təqdim edilmişdir. Bu sənədlər elmi əlaqələrin institusional əsaslarının gücləndirilməsi baxımından diqqətəlayiqdir.

Oktyabrın 21-də keçirilən işçi iclasda yeni fəxri akademiklər, akademiklər, assosiativ üzvlər seçilmiş, üç tanınmış alim və mühəndis "Fəxri professor" adına layiq görülmüşdür. İclas ərəfəsində iki fəxri üzvün, 22 akademikin, 12 assosiativ üzvün və üç fəxri professorun seçilməsinin nəzərdə tutulduğu bildirilmişdir. Rəsmi məlumatda yeni seçilmiş şəxslərin hamısı üzrə yenilənmiş ümumi yekun rəqəmlər ayrıca göstərilmədiyindən əvvəlki üzvlük statistikası ilə bu seçkilərin nəticələri eyniləşdirilmir.

Assambleyada dörd sahəvi Asiya elmi şurası yaradılmışdır: iqlim məsələləri üzrə şuraya Rae Kvon Çan, səhiyyə üzrə şuraya Azərbaycanın səhiyyə naziri Teymur Musayev (Baş nazirin hazırkı müavini - **red.**), süni intellekt üzrə şuraya koreyalı professor Jiro-Kay Honq, təhsil üzrə şuraya isə Özbəkistandan Tulkin Teşabayev rəhbərlik edir. Bundan əlavə, Qazaxıstanın keçmiş fövqəladə hallar naziri Sırım Şaripxanovun rəhbərliyi ilə fövqəladə hallar üzrə komitə təsis edilmişdir.

Pakistan, Azərbaycan, Gürcüstan, Tacikistan, Özbəkistan, Qazaxıstan və Monqolustanda, habelə Rusiya Federasiyasının Başqırdıstan Respublikasında Akademiyanın milli və regional bölmələri yaradılmışdır. Azərbaycan Respublikası Milli Bölməsinin sədri akademiyanın vitse-prezidenti, iqtisad elmləri doktoru, professor Elşən Hacızadə seçilmişdir. Digər bölmələrin rəhbərləri sırasında Kauser Abdulla Malik, Roin Metreveli, Qobilcon Xuşvaxtzodə, Serik İrsaliyev, Demberel Sodnomsambuu və Ramil Bəxtizin yer alırlar.

Yeni təsisatların sırasında Tamila Xəlilovanın rəhbərlik etdiyi "İpək Yolu İnstitutu" da vardır. Akademiyanın tərkibində daha əvvəl yaradılmış Asiya İqtisadiyyat İnstitutuna (Asian Economic of Science - AsES) professor Elşən Hacızadə, Rəqəmsal Onkologiya Mərkəzinə isə Şamil Qantsev rəhbərlik edir. Assambleyada akademiyanın strateji inkişaf istiqamətlərini əks etdirən "Ağ kitab" təsdiqlənmiş; onun redaksiya heyətinin fəxri həmsədrləri Takaaki Kajita və Rae Kvon Çan, həmsədrləri isə Elçin Xəlilov və Rafis Abazov olmuşlar.

Baş Assambleya çərçivəsində elm və texnologiyaların inkişafında müstəsna xidmətlərinə görə 25, təhsilin inkişafına verdikləri töhfələrə görə 16 akademiya üzvünə sertifikatlar və adları həkk olunmuş kristal mükafatlar verilmişdir. İclasların sonunda Rəyasət Heyəti Bürosunun genişləndirilmiş iclası keçirilmişdir. Oktyabrın 21-22-də keçirilən Birinci Yüksək Səviyyəli Asiya Elmi Forumunda isə 17 elmi məruzə dinlənilmiş, yeni texnologiyalar və beynəlxalq əməkdaşlıq istiqamətində müzakirələr aparılmışdır.

Azərbaycan elmi və azərbaycanlı alimlərin beynəlxalq fəaliyyəti

Azərbaycan elmi zəngin tarixi ənənələrə, müxtəlif istiqamətlər üzrə formalaşmış elmi məktəblərə və dünya elminə töhfələr vermiş görkəmli alimlərə malikdir. Ölkəmizdə fundamental və tətbiqi elmlərin inkişafı, elmi kadrların hazırlanması və müasir tədqiqat istiqamətlərinin genişləndirilməsi beynəlxalq elmi əməkdaşlıq üçün mühüm intellektual baza formalaşdırmışdır.

Asiya Elmlər Akademiyasında Azərbaycanı təmsil edən alimlər arasında ölkəmizin müxtəlif elmi məktəblərinin görkəmli nümayəndələri xüsusi yer tutur. Akademiyanın rəsmi üzvlük siyahısında fəxri akademik kimi göstərilən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Milli Aviasiya Akademiyasının rektoru, texnika elmləri doktoru, professor Arif Paşayev aviasiya texnologiyaları, mühəndislik və innovasiya sahələrindəki fəaliyyəti ilə tanınır. O, eyni zamanda Azərbaycan Mühəndislik Akademiyasının prezidentidir.

Akademiyanın həqiqi üzvləri sırasında Azərbaycan Milli Elmlər Akademiyasının və Rusiya Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru, professor Cəmil Əliyev də vardır. Milli Onkologiya Mərkəzinin baş direktoru olan görkəmli alim onkologiya və tibbi tədqiqatlar sahəsində geniş elmi məktəb formalaşdırmış, çoxsaylı elmi əsərlərin müəllifi kimi beynəlxalq elmi ictimaiyyətdə tanınmışdır.

Azərbaycan elminin tanınmış nümayəndələri sırasında görkəmli iqtisadçı alim, AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor Ziyad Səmədzadənin elmi fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun milli iqtisadi düşüncənin inkişafına, iqtisadi tədqiqatların nəzəri-metodoloji əsaslarının zənginləşdirilməsinə və yüksəkixtisaslı elmi kadrların yetişdirilməsinə verdiyi töhfələr Azərbaycan iqtisad elminin mühüm nailiyyətlərindəndir.

Tanınmış iqtisadçı alimlər Vahid Novruzovun, Məhəbbət Məmmədovun, UNEC-in Dərbənd filialının rəhbəri professor Qurban Qurbanovun, cərrahiyyə sahəsində professor Rauf Ağayevin, imikrobiologiya sahəsində professor Pənah Muradovun və digər tanınmış mütəxəssislərin akademiyada təmsil olunması Azərbaycan elminin çoxşaxəli potensialını və beynəlxalq elmi əməkdaşlıq imkanlarını nümayiş etdirir.

Asiya Elmlər Akademiyasının nəzdində 2025-ci ildə Asiya İqtisadiyyat İnstitutunun yaradılması və ona professor Elşən Hacızadənin rəhbərlik etməsi iqtisadi tədqiqatların beynəlxalq əlaqələndirilməsi baxımından əhəmiyyətlidir. İnstitut iqtisadi inkişaf modellərinin araşdırılması, müxtəlif ölkələrin təcrübələrinin müqayisəli təhlili, innovasiya və dayanıqlı inkişaf mövzularında birgə tədqiqatlara şərait yaradır. Akademiyanın Honkonqda qeydiyyatdan keçmiş iqtisadiyyat bölməsi tərəfindən 2025-ci ildə "Asian Economic Science - ASES" beynəlxalq elmi jurnalı da təsis edilmişdir. Baş redaktoru professor Elşən Hacızadə olan nəşr iqtisadçı alimlərin tədqiqat nəticələrinin tədqimatına və elmi fikir mübadiləsinə xidmət edir.

Bu prosesdə əsas məqsəd yalnız beynəlxalq elmi təşkilatlarda təmsil olunmaq deyil, mövcud imkanları konkret elmi nəticələrə, birgə tədqiqat layihələrinə, innovativ təşəbbüslərə, texnologiya və bilik mübadiləsinə yönəltməkdir.

Azərbaycan elminin zəngin ənənələri, görkəmli alimlərimizin formalaşdırdıqları elmi məktəblər və gənc tədqiqatçıların yüksələn potensialı bu məqsədlərin reallaşdırılması üçün möhkəm əsas yaradır.

Xüsusilə iqtisad elminin digər elmi istiqamətlərlə qarşılıqlı əlaqəsinin genişləndirilməsi, yeni texnologiyaların iqtisadi nəticələrinin kompleks qiymətləndirilməsi və dayanıqlı inkişafın elmi əsaslarının gücləndirilməsi gələcək əməkdaşlığın mühüm prioritetləri kimi çıxış edə bilər.

İnanırıq ki, Asiya Elmlər Akademiyası ilə əməkdaşlığın genişlənməsi Azərbaycan elminin beynəlxalq nüfuzunun möhkəmlənməsinə, milli elmi potensialın daha geniş miqyasda reallaşdırılmasına və yeni elmi nailiyyətlərin əldə edilməsinə mühüm töhfələr verəcəkdir.

Elmin qüdrəti onun sərhədləri aşmaq, xalqları yaxınlaşdırmaq və bəşəriyyətin ortaq gələcəyinə xidmət etmək bacarığındadır. Azərbaycan elmi də öz zəngin ənənələri, görkəmli alimləri və intellektual potensialı ilə bu gələcəyin qurulmasında layiqli yer tutmağa qadirdir.

Elşən HACIZADƏ,
iqtisad elmləri doktoru, professor,
Asiya Elmlər Akademiyasının
vitse-prezidenti

"Yüksəliş": insan kapitalına strateji sərmayədən milli idarəçilik irsinə

Dövlətin uzunmüddətli rəqabət üstünlüyünü müəyyən edən amillərdən biri ölkədə istedadlı insanların sayı, digəri isə həmin insanları vaxtında üzə çıxarmaq, inkişaf etdirmək və onların potensialının reallaşması üçün imkanlar yaratmaqdır. Birincisi ölkənin mövcud sərvətidir, ikincisi isə düşünülmüş dövlət siyasətinin nəticəsidir.



Prezident İlham Əliyevin noyabrın 16-da imzaladığı "2027-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında" sərəncam bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu sərəncam insan kapitalına yönəlmiş dövlət siyasətinin ardıcıllığını nümayiş etdirməklə yanaşı, ötən illər ərzində formalaşdırılmış idarəçilik potensialının aşkarlanması və inkişaf etdirilməsi modelinə göstərilən yüksək etimadın ifadəsidir.

Bu fikirlər "Yüksəliş" müsabiqəsinin işçi qrupundan AZƏRTAC-a təqdim olunmuş "Yüksəliş": insan kapitalına strateji sərmayədən milli idarəçilik irsinə" sərlövhəli məqalədə yer alıb.

Strateji qərardan institusional modelə

2019-cu il iyulun 26-da Prezident İlham Əliyevin sərəncamı ilə "Yüksəliş" müsabiqəsinin təsis edilməsi Azərbaycanın kadr siyasətində keyfiyyətcə yeni yanaşmanın əsasını qoydu. Ölkədə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və kadr ehtiyatı bankının yaradılması konkret vəzifə kimi qarşıya qoyuldu.

2021-ci ildə isə rəqabətli insan kapitalının və müasir innovasiyalar məkanının formalaşdırılması "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində ölkənin beş milli prioritetindən biri kimi müəyyən edildi. Bu ardıcıllıq göstərir ki, "Yüksəliş"in yaradılması Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının məntiqindən irəli gələn düşünülmüş qərar idi.

Ötən altı mövsüm ərzində müsabiqədə 47 min 70 nəfər iştirak edib, 136 nəfər qalib olub. Altıncı mövsümdə isə qeydiyyatdan keçənlərin sayı rekord həddə - 17 min 651 nəfərə çatıb.

Müsabiqəyə artan marağın arxasında daha geniş ictimai tendensiyanı görmək mümkündür. Bu, Azərbaycanda öz bilik və bacarıqlarına güvənən, daha böyük peşəkar məsuliyyət götürməyə hazır olan, inkişaf etmək və sağlam rəqabət şəraitində özünü təsdiqləmək istəyən insanların mövcudluğudur.

Bu potensialın ölkə miqyasında görünən və qiymətləndirilə bilən resursa çevrilməsi "Yüksəliş"in əsas nəticələrindən biridir.

"Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev deyib: "Prezident İlham Əliyevin yeddinci müsabiqə ilə bağlı sərəncamı bizim üçün həm bu işə göstərilən etimadın, həm də qazanılmış təcrübəni inkişaf etdirmək məsuliyyətinin ifadəsidir. Altı mövsümün nəticəsini yalnız qaliblərin sayı ilə qiymətləndirmək kifayət deyil. Bu illər ərzində ölkədə idarəçilik bacarıqlarını qiymətləndirmək, yarımfinal və final üçün yerli keyslər hazırlamaq və ekspertləri vahid metodologiya əsasında yetişdirmək təcrübəsi formalaşıb".

İdarəçilik potensialının ölçülməsi

İdarəetmə sahəsində mürəkkəb məsələlərdən biri yüksək nəticələr göstərən mütəxəssislə yüksək idarəçilik potensialına malik şəxsi fərqləndirməkdir. Öz sahəsinin güclü mütəxəssisi olmaq hər zaman effektiv rəhbər olmaq demək deyil. İdarəçilik fərqli düşüncə tərzi, qeyri-müəyyənlik şəraitində qərar qəbul etmək, insanları ümumi məqsəd ətrafında birləşdirmək və nəticəyə görə məsuliyyət daşımaq bacarığı tələb edir.

"Yüksəliş"in qiymətləndirmə metodologiyası məhz bu fərqi müəyyən etməyə imkan verir.

Müsabiqənin ilkin mərhələlərində iştirakçıların ümumi bilikləri, analitik düşüncəsi, emosional zəkası və situasiyaları dəyərləndirmək bacarığı yoxlanılır. Sonrakı mərhələlərdə isə namizədlər real iş mühitinə yaxınlaşdırılmış idarəetmə situasiyalarında, fərqli komandaların tərkibində və məhdud zaman çərçivəsində qərarlar qəbul edirlər. Burada iştirakçının hansı qərarı verməsi qədər, həmin qərara necə gəlməsi, fərqli mövqelərlə necə işləməsi, dəyişikliklərə münasibəti və etik prinsiplərə sadiqliyi də əhəmiyyət daşıyır.

Ötən illər ərzində müsabiqə çərçivəsində qiymətləndirmə alətləri təkmilləşdirilib, idarəetmə keyslərinin hazırlanması üzrə yerli təcrübə və peşəkar qiymətləndirici ekspertlər korpusu formalaşdırılıb.

Altı mövsüm ərzində müsabiqənin 236 peşəkar mütəxəssisdən ibarət ekspert bazası formalaşıb. Üçüncü ildir ki, müsabiqənin yarımfinal və final mərhələlərində istifadə olunan idarəetmə keysləri ən qabaqcıl beynəlxalq təcrübələrə əsaslanaraq yerli mütəxəssislərimiz tərəfindən hazırlanır. Bununla yanaşı, müsabiqənin təşkilati proseslərinə dəstək üçün 160 nəfərlik könüllü bazası formalaşıb. Bu fəaliyyətin uzunmüddətli nəticələrindən biri də Azərbaycanda müasir idarəçilik səriştələrinin qiymətləndirilməsi sahəsində institusional bilik və təcrübənin toplanmasıdır.

Milli kadr ehtiyatı və qaliblərin sayından daha böyük nəticə

Bu gün "Yüksəliş"in kadr bankında 4500-dən çox perspektivli mütəxəssisin profili yer alır. Onlar iqtisadiyyat, maliyyə, təhsil, mühəndislik, informasiya texnologiyaları, dövlət idarəçiliyi və digər fəaliyyət sahələrini təmsil edirlər.

Kadr bankının əhəmiyyəti ondadır ki, burada müxtəlif qiymətləndirmə mərhələlərindən keçmiş, bilik və idarəçilik bacarıqlarını nümayiş etdirmiş şəxslər haqqında məlumatlar cəmləşdirilir. Bu, həm dövlət qurumları, həm də özəl sektor üçün perspektivli kadrların müəyyən edilməsi baxımından əlavə imkanlar yaradır.

Müsabiqənin açıq iştirak modeli isə idarəçilik potensialının ayrı-ayrı təşkilatların, peşəkar çevrələrin və ya coğrafi sərhədlərin daxilində qalmasının qarşısını almağa xidmət edir. Azərbaycanın müxtəlif regionlarında çalışan mütəxəssislər eyni qiymətləndirmə meyarları əsasında öz bacarıqlarını nümayiş etdirmək imkanı əldə edirlər.

Bu yanaşmanın əsasında meritokratiya prinsipi - insanın şəxsi keyfiyyətləri, bilik, bacarıq və nailiyyətləri əsasında irəliləməsi dayanır. Belə bir prinsipin cəmiyyətdə möhkəmlənməsi peşəkarlığın nüfuzunu artırır, fərdi inkişafı stimullaşdırır və sağlam rəqabət mədəniyyətini təşviq edir.

Peşəkar təcrübənin davamlılığı və "Yüksəliş" irsi

İdarəçilik təcrübəsinin mühüm bir hissəsi kitablarda və təlim proqramlarında əks olunmur. İllər ərzində mürəkkəb qərarlar qəbul etməklə, böhranları idarə etməklə və müxtəlif komandalarla çalışmaqla qazanılan biliklər, əsasən, birbaşa peşəkar ünsiyyət vasitəsilə ötürülür. "Yüksəliş"in Mentorluq Proqramı bu baxımdan xüsusi dəyərə malikdir. Müsabiqənin qaliblərı ölkənin aparıcı dövlət və özəl sektor rəhbərləri ilə birillik fərdi inkişaf proqramı çərçivəsində əməkdaşlıq etmək, eyni zamanda özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə etmək imkanı qazanırlar. Lakin modelin daha maraqlı xüsusiyyəti ondan ibarətdir ki, bu təcrübə müsabiqə qalibləri ilə məhdudlaşmır.

2023-cü ildən həyata keçirilən Tələbə Mentorluq Proqramı çərçivəsində qaliblər mentor kimi çıxış edərək ali təhsil müəssisələrinin tələbələrinə peşəkar inkişaf və karyera seçimlərində dəstək göstərirlər. İndiyədək keçirilmiş üç proqramın nəticəsində 35 tələbə iş təklifi alıb. Üç mövsüm ərzində bu proqramda ümumilikdə 221 tələbə iştirak edib.

Bununla yanaşı, intellektual görüşlər və müxtəlif peşəkar əlaqələndirmə təşəbbüsləri müsabiqə ətrafında formalaşan birliyin inkişafına xidmət edir. Bu görüşlərdə idarəçilik məsələləri ilə yanaşı, Azərbaycan tarixi, milli kimlik, ana dili, mədəniyyət və dövlətçilik ənənələri də müzakirə olunur. Çünki yüksəksəviyyəli idarəçinin formalaşması yalnız peşəkar səriştələrin inkişafı ilə başa çatmır. Onun intellektual dünyagörüşü, milli-mənəvi dəyərlərə bağlılığı və cəmiyyət qarşısında məsuliyyət hissi də böyük əhəmiyyət daşıyır. Bütün bunlar "Yüksəliş"in gələcəyə daşıdığı irsin tərkib hissələridir.

Yeddinci mövsüm: yeni imkanlar və daha böyük məsuliyyət

2019-cu ildə "Yüksəliş" təsis edilərkən Azərbaycanın qarşısında dayanan vəzifələrlə bugünkü inkişaf gündəliyi arasında mühüm fərqlər var.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub, Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənir, iqtisadi və texnoloji imkanları genişlənir. Bu nailiyyətlərin davamlılığı və yaranan imkanların səmərəli dəyərləndirilməsi müxtəlif sahələrdə yüksək peşəkarlığa, müasir düşüncəyə və dövlətçilik təfəkküründə malik kadrlara olan tələbatı artırır.

Qlobal miqyasda isə süni intellektin inkişafı, rəqəmsal transformasiya və yeni iqtisadi modellərin meydana çıxması idarəçilik haqqında ənənəvi təsəvvürləri dəyişir.

"Yüksəliş"in növbəti inkişaf mərhələsində qiymətləndirmə metodologiyasının bu çağırışlara uyğun təkmilləşdirilməsi, kadr bankının imkanlarının genişləndirilməsi, beynəlxalq təcrübə mübadiləsi və iştirakçıların uzunmüddətli peşəkar inkişafının dəstəklənməsi xüsusi əhəmiyyət kəsb edir.

Altı mövsüm ərzində əldə olunan nəticələr artıq bu istiqamətlərdə irəliləmək üçün möhkəm təməl yaradıb.

Bu gün "Yüksəliş"in altı mövsümlük fəaliyyətini rəqəmlərlə ifadə etmək mümkündür. Lakin onun uzunmüddətli dəyəri qarşıdakı onilliklərdə həmin insanların rəhbərlik etdikləri təşkilatlarda, həyata keçirdikləri layihələrdə, yetişdirdikləri kadrlarda və ölkəmizə qazandırdıqları nailiyyətlərdə daha aydın görünəcək. İnsan kapitalına strateji sərmayənin mahiyyəti bugünkü imkanların sabahın milli sərvətinə çevrilməsidir.



Mədəniyyət



● Kino tariximiz

Tək qadının səssiz qiyamı - "Nabat"ın acısı

Müharibə bəşəriyyətin ən böyük fəlakətidir. Lakin onun gətirdiyi dağıdıcılığı anlamaq üçün hər zaman cəbhədə olmağa, oradan verilən reportajlara ehtiyac qalmır. Bəzən tərk edilmiş bir kəndin sükutu, söndürülmüş çıraq və oğul itkisinin acısını ürəyində daşıyan bir ananın baxışları müharibənin bütün dəhşətini göstərməyə yetir.

İstedadlı rejissor Elçin Musaoğlunun "Nabat" bədii filmi məhz bu fəlsəfə üzərində qurulub. Müasir Azərbaycan kinosunun ən uğurlu əsərlərindən sayılan bu film tamaşaçıya bütöv bir xalqın taleyini və qadın mənəviyyatının sarsılmaz gücünü təqdim edir. Filmin sanbalı onun dialoqsuz, azdanışıqlı, vizual təhkiyəyə əsaslanan rejissor həllindədir. Mütəxəssislər yazırlar ki, rejissor Elçin Musaoğlu "göstər, amma demə" prinsipinə sadiq qalaraq gizli və metaforik kadrlarla tamaşaçını hadisələrin içinə çəkir.



Hadisələr 1990-cı illərin əvvəllərində, müharibənin alovlandığı Qarabağ kəndlərindən birində cərəyan edir. Erməni hərbi birləşmələrinin hücum təhlükəsinə görə kənd əhalisi təxliyə olunub. Lakin



yeganə oğlu şəhid olan, qoca və xəstə əri İsgəndərlə kəndin kənarında yaşayan Nabat xala öz yurdunu, oğlunun məzarını qoyub gedə bilmir. Ərinin ölümündən sonra isə o, kimsəsiz kənddə tamamilə tək qalır.

Filmin ən təsirli xətti Nabatın təkbaşına qaldığı kəndi yaşatmasıdır. Düşmən kəndin boşaldığını bilib ora daxil olmasın deyə, yaşlı qadın hər axşam boş evləri gəzir, oradakı neft çıraqlarını yandırır və məsciddən azan səsi ucaldır. O, təkbaşına bir ordunun qorxusuna qarşı dayanır, kəndin çıraqlarını yandırmaqla ümidi, həyatı və doğma torpağa olan sonsuz sədaqəti simvolizə edir. Nabat sadəcə bir ana deyil, o, tərk edilmiş Vətən torpağının kimsəsiz, amma başını dik tutan ruhudur.

Filmin ilk dəqiqələrində tamaşaçı baxışlarını təpə üzərində yerləşən daxmadan sonu bilinməyən yola qədər uzadır. Bu gözün yolçuluğu, həyatda olduğu kimi, ekranda da, Nabat ananın yaşadığı hər bir yolun izinə şahidlik edir. O yol ki, haradan başladığı bəlli olsa da, harada bitəcəyi filmin qəhrəmanını və tamaşaçını da düşündürür. Yol isə bitmir. Film boyu Nabat xalanın hər iki əlinə süd balonu alıb, onları satmaq üçün yola çıxdığını görürük. Ərini və özünü saxlamaq üçün süd satmaqla məşğul olan bu vüqarlı xanım kəndi gəzərkən salam verdiyi qonşuların evlərini tərk etmək üçün yığışdığını görür. Bu köçün qəhrəmanın baxışlarında yaratdığı yadlıq hissi bir neçə saniyəlik ümumi planlarla tamaşaçıya ötürülür. Və bununla rejissor filmin irəliləyən dəqiqələrində kəndin taleyi ilə bağlı artıq təsəvvür yaratmış olur.

Nabat xalanın isə hələ danışmağa, daha doğrusu, süd satmağa adamları var. Lakin Nabatın kənd sakinləri - Telli və oğlu Qiyasla söhbəti zamanı məlum olur ki, elə Telli xalanın qızı da güllə səslərinin uşaqda yaratdığı səksəkə səbəbindən kənddən rayon mərkəzinə köçüblər. Artıq süd almağa adam da yoxdur. Buna baxmayaraq, o, ənənəsinə sadiq qalaraq kənddə hamı köçən günə qədər hər səhər südü satmaq üçün yola çıxır.

Baş rolu canlandıran məşhur İran aktrisası Fatemeh Motamed-Arya (Fatimə Motamed Arya) Nabat obrazına inanılmaz bir canlılıq, reallıq gətirib. Demək olar ki, sözsüz - yalnız baxışları, yorğun addımları, çiyinlərindəki ağır kədəri və dik duruşu ilə o, Azərbaycan qadınının, fədakar anasının ümumiləşdirilmiş obrazını yaradıb. Onunla ekran bölüşən Vidadi Əliyev (İsgəndər rolu) və digər aktyorların minimalist, lakin daxili gərginliklə zəngin oyunu filmin dramatik təsirini yüksək səviyyəyə çatdırır.

Nabat xalanın həyat yoldaşı onun əməyinə qiymət verməklə yanaşı, bir qədər də öz vəfatından sonra həyat yoldaşının təkliyindən nigarandır. Mütəxəssislər yazırlar: "Nabat xala isə öz növbəsində həm ərinə, həm oğlunun məzarına son dərəcə sadiq vətənpərvər Azərbaycan qadınıdır. Nabat xalanın ərinin dünyasını dəyişməsi səhnəsi birbaşa deyil, dolayı yolla - Ağcanın südünün bitməsi, daxmanın pəncərəsinin açılaraq bağlanması və sonda inəyin vedrəyə təpik vuraraq itələməsi, kənddə yalnız Nabatın qalmasına işarə edir… Filmin ortalarından Nabat xalanın yalnızlığını görürük. Yağışlı havada ərini dəfn etməyə gedən qəhrəmanın iri planda verilməsi, göz yaşlarının da yağışa qarışaraq sanki onun əvəzinə nələrisə deməyə çalışdıqlarını göstərir. Əziyyət çəkən təkcə o deyil… Bir də Nabat xalanın halına "ağlayan" Ağca inəyi var. Nabatın əri üçün çəkdiyi sonuncu əziyyət, torpağı qazdıqdan sonra gücündən istifadə edərək "başdaşını" oraya qaldırmaq olur".

"Nabat" filmi Azərbaycan kino sənətinin son illərdə qazandığı ən böyük vizual və dramatik nailiyyətlərdən biridir. Rejissor Elçin Musaoğlunun 2014-cü ildə ərsəyə gətirdiyi bu ekran əsəri illər keçsə də, onun daşıdığı bəşəri mesaj, insan iradəsinin və ana fədakarlığının ən çətin sınaq anlarındakı möhtəşəm təsviri öz bədii təsir gücünü qoruyub saxlayır. 71-ci Venesiya Beynəlxalq Kinofestivalının "Horizontlar" proqramında nümayiş olunan film İtaliya mətbuatında ("ArtsLife" jurnalı) "Müharibəyə qarşı mübarizə aparan tənha qadın" başlığı ilə yüksək qiymətləndirilmişdir. Dünyanın fərqli ölkələrində keçirilən festivallarda mükafatlara layiq görülən bu əsər Azərbaycanın Qarabağ ağrısını və haqlı mübarizəsini siyasi şüarlarla deyil, sənətin saf və bəşəri dili ilə dünyaya tanıtdırır.

"Nabat" sadəcə baxılıb keçiləcək bir film deyil, o, baxıldıqdan sonra insanı uzun müddət sükuta və düşüncəyə qərq edir. Bu ekran əsəri sübut etdi ki, böyük dərdləri və haqlı mübarizəni anlatmaq üçün qışqırmağa ehtiyac yoxdur. Ən güclü haray - ən səssiz duruşun içində gizlənir.

Tammetrajlı bədii filmin ssenari müəllifləri Elxan Nəbiyev və Elçin Musaoğlu, quruluşçu operatoru Əbdülrəhim Bəşərat, quruluşçu rəssamı Şahin Həsənli, prodüseri Müşfiq Hətəmovdur.

İradə ƏLİYEVA,
"Azərbaycan"

● İncəsənət xadimlərimiz

Rənglərdə yaşayan ömür, sənətdə əbədiləşən ad

Yer kürəsi rənglərdən ibarətdir. Hər rəngin öz dili, hər çaların öz hekayəsi, hər mənzərənin insan qəlbində oyatdığı bir duyğu var. Bəzən insan ömrünü sözlərlə ifadə etmək mümkün olmur, onun dünyasını anlamaq üçün yaratdığı əsərlərə baxmaq, fırçasının izində gəzdirdiyi düşüncələri duymaq kifayət edir. Çünki sənətkar üçün kətan təkcə təsvir məkanı deyil, yaşadığı zamanın, gördüyü dünyanın, duyduğu hisslərin ifadə vasitəsidir.




Əsl rəssam rənglərlə danışır, obrazlarla düşüncələrini bölüşür, yaratdıqları ilə özündən sonrakı nəsillərə ömürlük yaddaş mirası qoyur. Azərbaycan təsviri sənətində özünəməxsus yaradıcılıq dünyası ilə seçilən Xalq rəssamı Davud Kazımov ömrünü rənglərin dili ilə ölkəmizi anlatmağa həsr edən sənətkarlardandır.

1926-cı il noyabrın 9-da Bakıda dünyaya göz açan Davud Mehdi oğlu Kazımovun sənət yolu hələ gənclik illərindən rəssamlığa duyduğu maraqla başlayıb. İlk sənət dərslərini Xalq rəssamı Kamil Xanlarovun rəhbərlik etdiyi rəssamlıq dərnəyində alan Davud Kazımov sonralar Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində təhsilini davam etdirib. 1946-cı ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunması onun peşəkar sənət yolunda mühüm mərhələ olub. Beləcə, Azərbaycan təsviri sənətinin gələcək inkişafında sözünü deyəcək bir rəssamın yaradıcılıq salnaməsi yazılmağa başlayıb. Müharibədən sonrakı illərdə yaradıcılıq fəaliyyətini genişləndirən rəssamın diqqət mərkəzində insan, onun taleyi, əməyi və gündəlik həyatın müxtəlif mənzərələri dayanırdı. "Əsgərin qarşılanması" əsərində döyüşdən dönən insanın sevincini, doğmaların duyğusunu və müharibədən sonrakı həyatın nəfəsini əks etdirən sənətkar hadisənin zahiri təsviri ilə kifayətlənmirdi. O, hər obrazın arxasında bir insan taleyinin dayandığını anlayırdı.


Davud Kazımovun yaradıcılığında həyatın adi görünən məqamları belə xüsusi bədii məna qazanırdı. "Konsert-tapmaca", "Çimərlikdə", "Uşaq konsultasiyası" kimi əsərlərində həyatın canlı lövhələri, insanların münasibətləri, dövrün əhvali-ruhiyyəsi və mənəvi dünyası öz əksini tapır. Rəssamın tablolarına diqqətlə baxdıqda hiss edirsən ki, o, həyatın səs-küylü hadisələrindən daha çox onun içərisində gizlənən səmimiyyəti, insanı insana bağlayan duyğuları görməyi bacarırdı.

Azərbaycan insanı onun sənət dünyasının başlıca qəhrəmanlarından idi. Neftçilər, kənd zəhmətkeşləri, qadınlar, müxtəlif peşə sahibləri rəssamın fırçasında özünəməxsus bədii ifadə tapırdı. "Sağıcılar", "Tarlada", "Abşeron qadınları", "Sumqayıt motivi", "Çayçı Elmira" və "Rəfiqələr" bu baxımdan diqqətəlayiq əsərlərdir. Həmin tablolarda insan əməyinə ehtiram, milli yaşam tərzinə bağlılıq və gündəlik həyatın gözəlliyini görmək bacarığı duyulur. Rəssam üçün zəhmət insanın mənəvi ucalığını göstərən dəyərlərdən idi.









Xəzər və Abşeron mövzusu isə rəssamın yaradıcılığında xüsusi yer tuturdu. Doğma torpağın sərt, əsrarəngiz təbiəti, dənizin dəyişkən əhvalı, sahillərin mənzərəsi və neft sənayesinin insan həyatı ilə vəhdəti rəssamın əsərlərində rənglərin dili ilə canlanırdı. 1957-ci ildə yaratdığı "Xəzərin yeraltı sərvətləri" əsərini Azərbaycan neftçilərinin fədakar əməyi əks etdirən əsl sənətkarlıq nümunəsi hesab etmək olar. "Zuğulba", "Dəniz sahili", "Şahdağ", "Göygöl", "Şamaxı yolu", "Çöl gülləri" və "Batabat" əsərləri isə onun doğma yurdun təbiətinə duyduğu məhəbbətin bədii ifadəsidir. Bu mənzərələrdə Azərbaycan torpağının rəngləri ilə yanaşı, ona bağlı insanların ruhu da yaşayır.

Rəssamın yaradıcılıq dünyası təkcə rəngkarlıqla məhdudlaşmırdı. Qrafika və kitab illüstrasiyası sahəsində də özünəməxsus iz qoyan Davud Kazımov Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı və Mirzə Əli Möcüzün əsərlərinə çəkdiyi illüstrasiyalarla söz sənəti ilə təsviri sənət arasında bədii körpü yaradırdı. Bolqarıstan və İspaniyaya səfərləri zamanı yaratdığı əsərlər isə onun müşahidə dairəsini genişləndirərək yaradıcılığına yeni mövzular qazandırıb.

Davud Kazımovun sənətə xidməti müəllimlik fəaliyyəti ilə tamamlanırdı. 1947-1966-cı illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində pedaqoji fəaliyyət göstərən rəssam sonralar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çalışaraq 1996-cı ildə professor adını alıb. 2001-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Akademik rəngkarlıq kafedrasında professor kimi fəaliyyət göstərib. Beləliklə, o, təkcə kətan üzərində əsərlər yaratmayıb, həm də gənc rəssamların dünyagörüşünün, sənət düşüncəsinin formalaşmasına töhfə verib.

Sənətkarın Azərbaycan mədəniyyətinə xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilib. 1978-ci ildə Əməkdar rəssam, 1992-ci ildə Xalq rəssamı fəxri adlarına layiq görülüb. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, Azərbaycan Rəssamlar İttifaqının bədii fondunda, eləcə də müxtəlif ölkələrin şəxsi kolleksiyalarında qorunub saxlanılır.

2015-ci il fevralın 14-də Bakıda dünyasını dəyişən Davud Kazımovun sənəti bu gün də yaşamaqda davam edir. Çünki əsl sənətkarın ömrü təqvimdə qeyd olunan illərlə ölçülmür, yaratdığı əsərlərdə, yetişdirdiyi tələbələrdə, sənətə gətirdiyi yeniliklərdə və insanların yaddaşında yaşamağı bacarır.

Bu günlər Davud Kazımovun anadan olmasının 100 ili tamam oldu. Rəssamın doğum gününün Azərbaycan Dövlət Bayrağı Günü ilə eyni tarixə təsadüf etməsi yubileyə xüsusi rəmzi məna verir. Bir tərəfdə xalqımızın müstəqilliyini, milli kimliyini və dövlətçilik qürurunu təcəssüm etdirən üçrəngli bayrağımız, digər tərəfdə isə ömrünü Azərbaycan incəsənətinə həsr etmiş bir sənətkarın əsrlər boyu yaşamağa layiq sənət irsi.

Bəlkə də rəssamın ən böyük uğuru elə budur - zaman keçsə də, onun tablolarına baxan hər kəs orada özündən, xalqından, doğma torpağından bir parça tapa bilir. Davud Kazımov rənglərlə gördüklərini deyil, sevdiklərini də təsvir edirdi. Onun əsərlərində Azərbaycan təbiəti nəfəs alır, zəhmət adamının alın təri görünür, insan duyğuları rənglərin yaddaşına köçürülür. İndi həmin rənglər sənətkarın səsi, sözü, əbədi varlığıdır. İllər ötür, nəsillər dəyişir, zaman axarı ilə davam edir, amma həqiqi sənətin rəngləri solmur, Davud Kazımovun yaratdığı əsərlər kimi.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Milli Dirçəliş Gününə həsr olunmuş "BİZ" sənədli filmi Budapeştdə nümayiş etdirilib

Milli Dirçəliş Günü münasibətilə Budapeştdə fəaliyyət göstərən Azərbaycan Evində xalqımızın Vətən müharibəsi dövründə nümayiş etdirdiyi milli birlik və həmrəylik ruhuna həsr olunmuş "BİZ" sənədli filminin nümayişi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Macarıstanda yaşayan həmvətənlərimiz, Azərbaycanın Macarıstandakı səfiri Esmira Cəfərova, eləcə də səfirliyin əməkdaşları iştirak ediblər.

Macarıstandakı Azərbaycan Evinin rəhbəri İbrahim Səfərli 17 Noyabr - Milli Dirçəliş Gününün Azərbaycan xalqının milli oyanış və azadlıq mübarizəsi tarixində mühüm yer tutduğunu bildirib. O, bu əlamətdar günün xaricdə yaşayan soydaşlarımız tərəfindən də qeyd olunmasının milli kimliyin, tarixi yaddaşın və həmrəylik ruhunun qorunması baxımından əhəmiyyətini vurğulayıb.

Çıxış edən Azərbaycanın Macarıstandakı səfiri Esmira Cəfərova Milli Dirçəliş Gününün xalqımızın müstəqillik və suverenlik uğrunda mübarizə tarixinin əlamətdar səhifələrindən biri olduğunu diqqətə çatdırıb. Səfir Vətən müharibəsi zamanı Azərbaycan xalqının nümayiş etdirdiyi misilsiz birlik və həmrəyliyin tarixi Zəfərin əldə olunmasında mühüm rol oynadığını vurğulayıb. O, xarici ölkələrdə yaşayan azərbaycanlıların milli maraqlar ətrafında birləşməsinin, Vətənlə əlaqələrin qorunmasının və milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib.

Sonra "BİZ" sənədli filminin nümayişi olub.

Azərbaycanlı dirijor İtaliyada beynəlxalq müsabiqənin münsiflər heyətində yer alıb

İtaliyanın Apuliya regionunun Molfetta və Bişelye şəhərlərində ilk Aralıq dənizi Beynəlxalq Dirijorluq Müsabiqəsi- "Mediterranean International Conducting Competition 2026" keçirilib. Müsabiqə görkəmli italyan dirijoru və musiqi pedaqoqu maestro Mariano Pattinin xatirəsinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, bu mötəbər beynəlxalq müsabiqədə dünyanın 30-dan çox ölkəsindən 100-ə yaxın gənc dirijor iştirak edib. Yarışmanın münsiflər heyətində Azərbaycanı ilk dəfə Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və Dövlət Kamera Orkestrinin dirijoru, Əməkdar artist Əyyub Quliyev təmsil edib. O, tanınmış dirijorları, musiqiçiləri və aparıcı musiqi təşkilatlarının nümayəndələrini bir araya gətirən bu nüfuzlu komissiyanın üzvü olub.

Müsabiqənin seçim turları və yarımfinal mərhələsi Molfetta şəhərində yerləşən Auditorium Madonna della Rosa konsert zalında keçirilib. Final mərhələsi isə Bişelye şəhərinin tarixi Teatro Garibaldi teatrının səhnəsində baş tutub.

Müsabiqənin təntənəli bağlanış mərasimi Orchestra Sinfonica Federiciana simfonik orkestrinin iştirakı ilə keçirilib. Finalçılar orkestrin müşayiəti ilə öz dirijorluq məharətlərini nümayiş etdiriblər.



İlk dəfə keçirilən "Mediterranean International Conducting Competition" gənc dirijorların dəstəklənməsi, peşəkar əməkdaşlığın inkişaf etdirilməsi və müxtəlif ölkələr arasında mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli beynəlxalq musiqi hadisəsi kimi yadda qalıb.

"Eternity-2026" təliminin iştirakçıları Zəfər parkını ziyarət ediblər

"Eternity-2026" kompüter dəstəkli komanda-qərargah təliminin iştirakçıları Bakı şəhərində Vətən müharibəsində qazanılmış tarixi Qələbənin rəmzi olan Zəfər parkını ziyarət ediblər.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, gəzinti zamanı qonaqlar Azərbaycan Ordusunun 44 günlük döyüş yolu və parkın memarlıq xüsusiyyətləri ilə yaxından tanış olublar.

Bununla yanaşı, ziyarətçilərə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib.

Şirvanda şəhid Elçin Əliyevin xatirəsi anılıb

Şirvandakı Şəhidlər xiyabanında ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda gedən döyüşlərdə həlak olmuş Əliyev Elçin Əliqardaş oğlunun anım gününə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov, YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, SHXÇDX-nin Şirvan şəhər şöbəsinin rəisi vəzifəsini icra edən Ənvər Zərbəliyev, müəssisə və təşkilatların rəhbərləri və əməkdaşları, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin məzarı ziyarət edildən sonra çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda canlarından keçən igid övladların şücaətindən söz açaraq bildirib ki, onların Vətənə sədaqəti və torpaqlarımızın müdafiəsi uğrunda göstərdikləri rəşadət xalqımızın yaddaşında daim yaşayacaq, xatirələri hər zaman ehtiramla yad olunacaq. ŞİH-in başçısı 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbənin şəhidlərimizin misilsiz fədakarlığının və xalqımızın sarsılmaz birliyinin nəticəsi olduğunu qeyd edib. O, həmçinin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan danışıb. Şirvan şəhərində də şəhid ailələri və müharibə iştirakçılarına xüsusi həssaslıqla yanaşıldığını, onların müraciət və problemlərinin həlli istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.



Çıxışlar zamanı ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin Vətən qarşısındakı xidmətləri ehtiramla yad edilib, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin əhəmiyyəti vurğulanıb, şəhidlərin əziz xatirəsinin yaşadılması və onların Vətənə sədaqət nümunəsinin gələcək nəsillərə çatdırılmasının hər kəsin mənəvi borcu olduğu qeyd edilib.

Sonra Şəhidlər xiyabanında dəfn olunan digər şəhidlərin məzarları ziyarət edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Şəhid ailələrinin üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Şəhid Elçin Əliyev ölkəmizin ərazi bütövlüyünün müdafiəsi zamanı xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif edilib.

Seyran CAVADOV,
"Azərbaycan"

Sənaye parkları Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafına xidmət edir

Bu gün Qarabağ və Şərqi Zəngəzurda yeni həyatın etibarlı təməlləri yaradılır. Həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri təkcə yaşayış məntəqələrinin salınmasını, yolların çəkilməsini, məktəblərin, xəstəxanaların və digər sosial obyektlərin tikilməsini əhatə etmir. Qarşıya qoyulan əsas strateji məqsədlərdən biri də regionun iqtisadi potensialının hərəkətə gətirilməsi, dayanıqlı məşğulluğun təmin olunması və ölkənin vahid iqtisadi sisteminə tam inteqrasiyasıdır. Bu baxımdan, işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parkları xüsusi əhəmiyyət daşıyır.





Qarabağ və Şərqi Zəngəzurdakı quruculuğun vacib istiqamətlərindən biri də müasir istehsal müəssisələrinin yaradılması, sahibkarlığın inkişafı və investisiya mühitinin formalaşdırılmasıdır. Çünki ərazilərin bərpası yalnız müasir infrastrukturun qurulması ilə yekunlaşmır. Bu ərazilərə qayıdan insanların daimi iş yerləri ilə təmin edilməsi, ailələrin sabit gəlir mənbələrinin formalaşdırılması, yerli istehsalın genişləndirilməsi və iqtisadi fəallığın artırılması da vacib şərtlərdəndir. Başqa sözlə, Böyük qayıdışın davamlılığı üçün yaşayış şəraiti ilə yanaşı, güclü iqtisadi baza da yaradılmalıdır.

Bu istiqamətdə atılan mühüm addımlardan biri 2021-ci il mayın 28-də Ağdam Sənaye Parkının yaradılmasıdır. Ağdam rayonunda yerləşən və 190 hektar ərazini əhatə edən park regionun sənaye potensialının inkişaf etdirilməsinə xidmət edir. Burada tikinti materiallarının istehsalı, qida və kənd təsərrüfatı məhsullarının emalı, ət və süd məhsullarının hazırlanması, maşınqayırma, yüngül sənaye, mebel, qablaşdırma və məişət məhsulları istehsalı kimi müxtəlif fəaliyyət istiqamətləri nəzərdə tutulub. Bu sahələrin inkişafı həm daxili bazarın tələbatının ödənilməsi, həm də gələcəkdə ixrac imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Vaxtilə ölkənin mühüm sənaye və ticarət mərkəzlərindən biri olmuş Ağdamda istehsal ənənələrinin bərpası şəhərin yenidən iqtisadi fəallıq mərkəzinə çevrilməsi üçün geniş imkanlar açır. Ağdam Sənaye Parkı rezident sayına görə Sumqayıt Sənaye Parkından sonra ölkədə ikinci ən böyük sənaye parkıdır. Burada hazırda 9 müəssisə fəaliyyət göstərir, 5-dən çox müəssisənin tikintisi isə davam etdirilir. Sahibkarlar tərəfindən görülən işlərə 115 milyon manatdan çox investisiya yatırılıb, 964 nəfər daimi işlə təmin edilib.

Noyabrın 7-də Prezident İlham Əliyevin Ağdam Sənaye Parkında ASMC Məhdud Məsuliyyətli Cəmiyyətinin metal məmulatları istehsalı müəssisəsinin açılışında iştirakı da regionda sənayeləşmə prosesinin ardıcıl şəkildə davam etdirildiyini göstərir. Belə müəssisələrin yaradılması Qarabağda aparılan genişmiqyaslı tikinti və quruculuq işlərinin yerli istehsal hesabına təmin olunması baxımından da mühüm əhəmiyyət kəsb edir. Tikinti materiallarına və metal məmulatlarına artan tələbatın müəyyən hissəsinin regionda fəaliyyət göstərən müəssisələr tərəfindən qarşılanması daşınma xərclərinin azaldılmasına, istehsal əlaqələrinin genişlənməsinə və əlavə iqtisadi dəyərin yaradılmasına imkan verə bilər. Eyni zamanda bu proses yeni təchizat, xidmət və əməkdaşlıq imkanları formalaşdıraraq kiçik və orta sahibkarlığın inkişafına da təkan verir. Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da azad edilmiş ərazilərin iqtisadi inkişaf strategiyasında mühüm yer tutur. 2021-ci il oktyabrın 4-də yaradılan və Cəbrayıl rayonunda yerləşən parkın ərazisi 200 hektardır. Burada investisiya həcmi 24,72 milyon ABŞ dolları, iş yerlərinin sayı isə 96-dır. Parkın əsas fəaliyyət istiqamətlərinə logistika və anbar xidmətləri, nəqliyyat və texniki servis, tikinti materiallarının istehsalı, metal emalı, maşınqayırma, qida və kənd təsərrüfatı məhsullarının emalı, həmçinin alternativ enerji layihələri daxildir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının mühüm üstünlüklərindən biri onun nəqliyyat və logistika imkanlarının inkişafına yönəlməsidir. Şərqi Zəngəzurun əlverişli coğrafi mövqeyi regionda yükdaşımaların, ticarət əlaqələrinin və istehsal-logistika zəncirlərinin genişləndirilməsi üçün perspektivlər yaradır. Burada yaradılan sənaye infrastrukturu gələcəkdə həm daxili iqtisadi əlaqələrin möhkəmlənməsinə, həm də Azərbaycanın regional tranzit və ticarət imkanlarından daha səmərəli istifadə edilməsinə xidmət edə bilər.

Hər iki sənaye parkının fəaliyyət istiqamətləri bir-birini tamamlayır. Ağdam Sənaye Parkı daha çox istehsal və emal sənayesinin inkişafına yönəldiyi halda, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı sənaye istehsalı ilə yanaşı, logistika, nəqliyyat və ticarət infrastrukturunun formalaşdırılmasına xidmət edir. Bu yanaşma Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialından kompleks şəkildə istifadə olunmasına, müxtəlif sahələr arasında qarşılıqlı əlaqələrin qurulmasına şərait yaradır.

Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişində Laçın Aqro-Sənaye Parkı da mühüm rol oynayır. Laçın rayonunun Zerti kəndində yerləşən və 2023-cü il avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı keçirilən parkda istehsal və xidmət sahələrinin inkişafı istiqamətində ardıcıl işlər görülür. Parkda mebel istehsalı, yüngül və yeyinti sənayesi, balıqçılıq, heyvandarlıq, tingçilik, ekoloji təmiz məhsulların emalı və digər istiqamətlər üzrə layihələr həyata keçirilir. Bu müəssisələrin əsas üstünlüklərindən biri işçi qüvvəsinin əhəmiyyətli hissəsinin yerli sakinlərdən formalaşmasıdır. Sənaye parklarının inkişafını stimullaşdıran əsas amillərdən biri də dövlət tərəfindən yaradılan əlverişli biznes mühitidir. Müasir mühəndis-kommunikasiya infrastrukturunun qurulması, rezidentlər üçün nəzərdə tutulan vergi və gömrük güzəştləri, Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli maliyyələşmə və zəmanət mexanizmləri sahibkarların bu ərazilərə marağını artırır. Belə dəstək tədbirləri investisiya risklərinin azaldılmasına, yeni müəssisələrin yaradılmasına və qeyri-neft sektorunun inkişafına xidmət edir. Yerli və xarici sərmayənin cəlb olunması isə regionun iqtisadi imkanlarının daha geniş miqyasda reallaşdırılması üçün mühüm şərtdir.

İşğaldan azad edilmiş ərazilərdə sənaye müəssisələrinin fəaliyyətə başlaması müxtəlif peşə və ixtisaslara tələbat yaradır, gənclərin regionda işləməsi və peşəkar inkişafı üçün yeni perspektivlər açır. Bu isə əhalinin iqtisadi fəallığını artırmaqla yanaşı, yaşayış məntəqələrinin uzunmüddətli inkişafını da dəstəkləyir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən iqtisadi layihələr Azərbaycanın qeyri-neft sektorunun şaxələndirilməsi, yerli xammal və təbii ehtiyatlardan səmərəli istifadə, idxaldan asılılığın azaldılması və ixrac potensialının artırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu gün regionda qurulan hər bir müəssisə, yaradılan hər bir iş yeri yalnız iqtisadi göstərici deyil, həm də azad edilmiş torpaqlarda həyatın bərpasının real təzahürüdür.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

İdman

AVRO-2028: Millimizin rəqibləri ilə bağlı səfər məhdudiyyətləri müəyyənləşib

Futbol üzrə 2028-ci il Avropa çempionatının seçmə mərhələsinin püşkatması zamanı komandaların səfər məsafələri ilə bağlı müəyyən məhdudiyyətlər nəzərə alınacaq.



AZƏRTAC UEFA-nın rəsmi saytına istinadən xəbər verir ki, bəzi ölkə cütlükləri arasında məsafənin həddindən artıq uzun olması səbəbindən onların eyni qrupa düşməsinə məhdudiyyət tətbiq ediləcək.

Məlumata görə, birbaşa uçuş müddəti və yerüstü əməliyyatlar üçün nəzərdə tutulan vaxt ən azı 8 saat təşkil edən səfərlər uzunməsafəli hesab olunur. Komandaların səfər yükünü azaltmaq məqsədilə belə ölkə cütlüklərdən yalnız birinin eyni qrupda yer almasına icazə veriləcək.

Azərbaycan millisi ilə bağlı da bu istiqamətdə məhdudiyyətlər nəzərdə tutulub. Belə ki, yığmamız Cəbəllütariq, İslandiya və Portuqaliya ilə eyni qrupa düşəcəyi təqdirdə uzunməsafəli səfər şərti nəzərə alınacaq.

Qeyd edək ki, AVRO-2028-in seçmə mərhələsinin püşkatma mərasimi dekabrın 6-da Şimali İrlandiyanın Belfast şəhərində keçiriləcək. Azərbaycan millisi püşkatmaya V səbətdən qatılacaq. Yığmamızla yanaşı, Malta, Litva, Şimali İrlandiya, Andorra və Lixtenşteyn komandaları da həmin səbətdə qərarlaşıb.

Ölkə idmançıları muaytay üzrə dünya çempionatında üç medal qazanıblar

Yunanıstanın Olimpiya şəhərində keçirilən muaytay üzrə gənclər arasında dünya çempionatında Azərbaycan idmançıları üç medal qazanıblar.



Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, yarışda Əli Cəfərli (U-16, 71 kiloqram) qızıl medala layiq görülüb.

Əfəndi Əfəndiyev (U-18, 51 kiloqram) və Sedat Əliyev (U-18, 57 kiloqram) isə dünya çempionatının gümüş medallarını qazanıblar.

Millimiz FIFA reytinqində mövqeyini yaxşılaşdırıb

Futbol üzrə Azərbaycan milli komandası FIFA reytinqində mövqeyini yaxşılaşdırıb.



AZƏRTAC ali futbol qurumunun rəsmi saytına istinadən xəbər verir ki, baş məşqçi Ayxan Abbasovun rəhbərlik etdiyi kollektiv 1145,18 xalla üç pillə irəliləyərək 124-cü sıraya yüksəlib.

Millimizin reytinqdə irəliləməsinə UEFA Millətlər Liqasında Lixtenşteynə (1:0), eləcə də beynəlxalq yoldaşlıq görüşündə Andorraya (3:1) hesablı qələbələri səbəb olub.

Reytinq cədvəlinə 2004,48 xalla İspaniya millisi başçılıq edir. Argentina 1966,13 xalla ikinci, Fransa isə 1950,82 xalla üçüncü yerdə qərarlaşıb.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi

İRA QAFAROVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü, Yazıçılar Birliyinin katibi Rəşad Məcidə anası

YAVƏR XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi

İRA QAFAROVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3292
Sifariş 1517
Qiyməti 60 qəpik